

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 fevral 2026-cı il, çərşənbə
№ 036 (7103)
Qiyməti 60 qəpik


# Vətəndaşın rifahı naminə...



Bax səh. 2

## Milli Məclisin iclasında...
## Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

Bax səh. 3

## Azərbaycan və İran yeni iqtisadi prioritetləri müəyyənləşdirib

Bakıda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 17-ci iclası keçirilib. Baş nazirin müavini, komissiyanın Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayev bildirib ki, Azərbaycan və İran arasında münasibətlərin ortaq tarixi, mədəni və dini dəyərlər, dostluq və qonşuluq prinsipləri əsasında qurulduğu, ikitərəfli əlaqələrin dinamikasının iki ölkə rəhbərlərinin siyasi iradəsinə əsaslanır və bütün sahələri əhatə edir.

Ş. Mustafayev qeyd edib ki, Ağbənd-Kələlə avtomobil körpüsünün tikintisi artıq başa çatıb və sərhəd-gömrük infrastrukturunun inşası tamamlandıqdan sonra körpünün istismara verilməsi nəzərdə tutulur. Sözügedən layihə Şərqi Zəngəzur...

Bax səh. 4

## WUF13-ə görə vergi güzəştləri qüvvəyə minir



Bax səh. 2

## Dərhal dayandırılmalıdır!

Azərbaycan Cənubi Qafqazda formalaşdırdığı yeni geosiyasi reallıqla regionun təhlükəsizlik arxitekturasını əsaslı şəkildə dəyişib. Uzun illər davam edən münaqişə və qeyri-müəyyənlik mərhələsindən sonra yaranmış sabitlik mühiti təkcə hərbi-siyasi deyil, həm də iqtisadi və nəqliyyat baxımından yeni münasibətlər sisteminin yaranmasını şərtləndirib. Rəsmi Bakının atdığı siyasi addımlar postmünaqişə mərhələsində davamlı sülhün təmin olunmasına, dövlət suverenliyinin tam bərpasına və iqtisadi reinteqrasiyanın sürətləndirilməsinə hesablanıb. Bu kontekstdə beynəlxalq platformalarda aparılan fəal diplomatiya xüsusi əhəmiyyət daşıyır. Ötən ilin avqustunda Vaşinqton şəhərində keçirilən zirvə görüşü də regionla bağlı müzakirələrin qlobal müstəviyə daşınması baxımından diqqət çəkmişdi.

Həmin görüşdən sonra bəzi anti-Azərbaycan mərkəzlərin, erməni lobbisinin "köhnə havalar" üzərində yenidən fəallaşması isə təsadüfi...

Bax səh. 5

## Beynəlxalq ictimaiyyət Xocalı soyqırımına hüquqi qiymət verməlidir

Bax səh. 3

## Kağızdan monitora...

### Təhsilin rəqəmsal inqilabı!

Bax səh. 4

## 3-cü hökumət istefaya göndərildi...

### AXC-də 4-cü hökumət necə formalaşmışdı?

Bax səh. 6

## "S&P Ratings"dən nikbin bəyanat

Bax səh. 6

## "Drujba" neft kəməri ətrafında gərginlik

Bax səh. 7




## 20-ci paket qəbul edilmədi

Bax səh. 7



## Bir gündə iki etimadsızlıq...

Bax səh. 6

# Vətəndaşın rifahı naminə...

## Minimum əməkhaqqı məbləğinə hər il baxılacaq



Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" fərman imzalayıb.

Dövlət başçısı, eyni zamanda, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunla Məcəllədə sosial müdafiənin səmərəli aləti sayılan minimum əməkhaqqının məbləğinə baxılmasının dövriliyini təmin edən dəyişikliyi təsdiqləyib.

Yeni qanunvericilik aktları ilə Əmək Məcəlləsinə minimum əməkhaqqının məbləğinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təklifləri əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən ildə bir dəfədən az olmayaraq yenidən baxılmasını nəzərdə tutan cümlə əlavə edilib. Bu dəyişiklik əmək sahəsində milli qanunvericiliyin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsində daha bir addım olmaqla, Azərbaycanda işçilərin minimum yaşayış səviyyəsini təmin edən minimum əməkhaqqı məbləğində ardıcıl artım dinamikasının qarşıdakı dövrdə davam etdirilməsini nəzərdə tutur.

### Milli inkişaf strategiyasından irəli gələn hədəflər

Dəyişikliklərə əsasən, minimum əməkhaqqı məbləğinə ildə ən azı 1 dəfə baxılacaq. Bu o deməkdir ki, dəyişiklik təsdiq olunduqdan sonra minimum əmək haqqı artımında dövrülük təmin olunacaq. Bu artımların artıq qanunla tənzimlənməsi anlamına da gələcək.

Minimum əməkhaqqının məbləğinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi təklifləri əsasında baxılması beynəlxalq sosial normativlərdən irəli gələn amildir. Beynəlxalq Əmək Təşkilatının tövsiyələrinə əsasən, işçilərin minimum yaşayış səviyyəsini təmin edən və dünyada sosial siyasət alətlərindən biri olan minimum əməkhaqqının tənzimlənməsi hökumətin sosial siyasətində daim əsas prioritet olmalıdır. Eləcə də, Dünya Bankı Qrupunun yeni qiymətləndirmə metodologiyası olan "Business Ready" sənədinə əsasən, "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Əmək bazarı" işçi qrupunun Fəaliyyət Planı"nda müvafiq dövlət qurumuna hər il minimum əməkhaqqının artırılması ilə bağlı təklifləri hazırlayaraq adiyyəti üzrə təqdim etmək tapşırılıb.

Eyni zamanda, ölkəmizin milli inkişaf doktrinası olan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədində əməkhaqlarının artırılması, işləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqqının məbləğinin yüksəldilərək xalis minimum əməkhaqqı ölçüsünün xalis orta aylıq əməkhaqqının nisbətinin məqbul səviyyəsinə çatdırılması nəzərdə tutulub.

**Ölkəmizin milli inkişaf doktrinası olan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədində əməkhaqlarının artırılması, işləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqqının məbləğinin yüksəldilərək xalis minimum əməkhaqqı ölçüsünün xalis orta aylıq əməkhaqqının nisbətinin məqbul səviyyəsinə çatdırılması nəzərdə tutulub**

əməkhaqqı "Yaşayış minimumu haqqında" Qanuna uyğun olaraq ixtisassız əməyə və xidmətə görə aylıq əmək haqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativdir. Aylıq iş vaxtı normasını işləmiş və əmək funksiyasını yerinə yetirmiş işçinin aylıq əmək haqqı dövlət tərəfindən müəyyən edilmiş minimum əmək haqqı məbləğindən aşağı ola bilməz

Minimum əməkhaqqının nə qədər artırılmasına gəlincə, bu rəqəm ölkədə inflyasiya ilə bağlı gözləntilər, sosial müdafiə sektorunda yığım imkanları və digər amillər nəzərə alınaraq müəyyənləşəcək. Artım əhalinin gəlirlərinə müsbət təsir etməklə, həm də əmək bazarına mühüm fayda verəcək, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, məhsuldarlığının, əməyin leqallaşdırılmasını təmin edəcək. Bu baxımdan, minimum əməkhaqqının növbəti artımından sonra yaşayış minimumu arasında rəqəm də təxminən 30-40 faiz yüksəlmiş olacaq. Eləcə də minimum əməkhaqqı artımı, ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbət göstəricisinin də yüksəlməsinə imkan verəcək.

Qeyd edək ki, həmin nisbət 2018-ci ildəki 26,5 faizdən 2019-cu ildəki 33,3 faizə, 2020-ci ildəki 38 faizə yüksəlib. 2022-ci ildə 40 faiz, 2025-ci ildə isə 42 faiz səviyyəsinə yüksəlib. Ümumiyyətlə, minimum əməkhaqqı son 6 ildə 5 dəfə artırlaraq 130 manatdan 400 manata qaldırılıb. Növbəti artımlar isə yaşayış və sosial normativlər üzrə nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində mühüm irəliləyiş olacaq.




### Hansı şəxslərin minimum əməkhaqqı artacaq?

Minimum əməkhaqqı artımı sayəsində ölkə üzrə təxminən 800 min vətəndaşın əmək haqqının artımı təmin olunur. Belə ki, dövlət büdcəsindən maliyyələşən bəzi sahələrdə əməyin ödənilməsi Vahid Tarif Cədvəli (VTC) əsasında aparılır. Vahid Tarif Cədvəlində maaşlar 19 dərəcə üzrə müəyyənləşdirilib. Hazırda ən aşağı maaş 400, ən yüksək isə 1150 manatdır. Bu, o deməkdir ki, minimum əməkhaqqının artırılması bütün dərəcələr üzrə artımlara səbəb olacaq. Bu zaman əməkhaqqının minimum səviyyədən az və çox olması xüsusi önəm daşımır. Xüsusilə də, sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s. sahələr üzrə maaşların artımları təmin olunur. Artımlar həm də özəl sektoru da əhatə edir. Çünki minimum əməkhaqqı artımları mülkiyyət növündən asılı olmayaraq bütün sektorlarda çalışan və aşağı maaş alan işçiləri əhatə edir. Bu baxımdan, özəl sektorda 400 minə yaxın şəxsin də maaşı artmış olur.

Qeyd edək ki, minimum

Beləliklə, "Əmək Məcəlləsinə" minimum əməkhaqqı ilə bağlı təklif edilən dəyişikliklərin qəbul olunması ölkəmizdə sosial müdafiənin effektiv aləti sayılan minimum əmək haqqının müəyyənləşməsinin dövriliyini təmin edəcək, insanların sosial rifahının artırılmasına səbəb olacaq.

***E.CƏFƏRLİ***

# WUF13-ə görə vergi güzəştləri qüvvəyə minir

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" qanunlarda dəyişiklik edilib. Yeni dəyişikliklər bir neçə istiqaməti nəzərdə tutur. Dəyişikliklərin ən mühüm istiqamətlərindən biri Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Azərbaycanda keçirilməsi ilə əlaqədar vergi güzəştlərinin tətbiqi ilə bağlıdır. Belə ki, WUF13-lə əlaqədar qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri - 2025-ci il sentyabrın 1-dən 1 il müddətinə vergi güzəşti tətbiq ediləcək.

### Vergi azadolmaları hansı sahələri əhatə edəcək?

* WUF13 çərçivəsində malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin həmin fəaliyyətdən əldə etdikləri gəlirlərin vergidən azad olunması;

* Qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müqavilə əsasında qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri (mənfəət vergisi) üzrə azadolma);

* Qeyri-rezident hüquqi şəxslər tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən gəlirlərin (mənfəət vergisindən azad edilməsi;

* Müqavilə əsasında qeyri-rezident şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi, habelə müvafiq təsdiqedici sənəd əsasında malların idxalının ƏDV-dən azad olunması

VM-nə dəyişikliklərin parlamentin plenar iclasında yaxın günlərdə müzakirəyə çıxarılaraq qəbul olunması gözlənilir. Bu dəyişikliklər təsdiqləndikdən sonra yuxarıda qeyd etdiyimiz hər bir istiqamət üzrə vergi güzəşt və azadolmaları bir il müddətinə qüvvədə olacaq.

### Biznes üçün əlavə imkanlar

WUF13-ün yüksək səviyyədə təşkili üçün təşkilat komitəsi ilə yanaşı, infrastruktur, təminat və təchizat, qonaqları yerləşdirmə, tədbirlərin təşkili, xidmət, turizm və digər sahələrin hazırlıqlılığının çevik və etibarlı olması zəruridir. Bu işlər üçün müxtəlif avadanlıqların, mal-materialŞ, xammal təchizatlarının, eləcə də, xidmət infrastrukturunun əlavə təminatlarının yaradılmasına ehtiyac var. Bütün bunların təminatı daha çox özəl sektorun və rezidentlərin üzərinə düşür. Onlar tədbirin yüksək səviyyədə keçirilməsi üçün tələb olunan avadanlıq, mal və xidmətlərin təqdim edilməsi, işlərin görülməsi və s. fəaliyyətlərə əlavə xərclər çəkməlidir. Bu baxımdan həmin xərclərin icrası zamanı biznesə müəyyən dövlət dəstəyinə ehtiyac yaranır. Hökumət bunu nəzərə alaraq özəl sektor təmsilçilərinin qeyd edilən fəaliyyət sahələrindən əldə etdikləri gəlirləri vergidən azad etməklə onlarda daha böyük stimullar yaratmaq niyyətindədir. Eləcə də WUF13 Forumu zamanı intellektual mülkiyyət və qeyri-maddi aktivlərdən istifadəyə də tələbatlar yaranır. Həmin mülkiyyət üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müqavilələr imzalanmaldır. Bu isə vergi öhdəlikləri yaradır. Hökumət  bu amili də nəzərə alaraq qeyri-rezident hüquqi şəxsləri mənfəət vergisindən azad etməyə qərar verir. Bu baxımdan, vergi güzəştlərini sənaye innovasiyasına və texnoloji inkişafa dəstək üçün iqtisadi tətil kimi qiymətləndirmək olar.

Beləliklə, qeyd edilən fəaliyyət sahələrində çalışan sahibkarların Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına hazırlıq dövründə və tədbir müddətində göstərdikləri iş və xidmətlərdən əldə etdikləri gəlirlər vergidən azad olunmaqla, onların dövriyyə imkanlarını yaxşılaşdıracaq.




### ƏDV ilə bağlı yeni güzəştlər

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin digər istiqaməti bir sıra qiymətli mədəniyyət nümunələrinin idxal vergisindən azad olunması ilə bağlıdır. Belə ki, incəsənət əsərlərinin, kolleksiya əşyalarının və əntiq əşyaların ölkəyə idxalı əlavə dəyər vergisindən (ƏDV) azad edilib. Vergi qanunvericiliyindəki yeni dəyişikliyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təsdiqedici sənədi əsasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyən olunan incəsənət əsərlərinin, kolleksiya əşyalarının və əntiq əşyaların idxalı ƏDV-dən azad edilib. Bu vergi güzəşti 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

### İnternetlə alış-verişdən ƏDV tutulacaq

Vergi Məcəlləsi, "Banklar haqqında", "Gömrük tarifi haqqında" qanunlarda dəyişikliklərin digər bir istiqaməti isə elektron ticarətdə vergi tənzimləri və gəlirlərə nəzarətlə bağlıdır. Yenilənmiş sənədlərə əsasən, vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentlər alıcısı Azərbaycanda olan iş və xidmətlərin təqdim edilməsindən dövriyyəsi təqvim ili ərzində 10 min dolların manat ekvivalentini keçdikdən sonra 30 gün müddətində elektron qaydada vergi uçotuna alınacaq. Bu maddədə qeyd olunan dövriyyəsi 10 min dolların manat ekvivalentindən aşağı olan qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması könüllü olaraq həyata keçiriləcək. Məsləhət, hüquq, maliyyə, mühasibat, dizayn və mühəndis xidmətlərinin elektron poçt və digər interaktiv ünsiyyət vasitələri ilə göstərilməsi, internet vasitəsilə real vaxt rejimində göstərilən tədris və təlim xidmətləri, habelə elm, təhsil, mədəniyyət, idman və əyləncə tədbirləri üçün biletlərin onlayn sifariş edilməsi xidmətləri bu maddənin məqsədləri üçün elektron ticarət qaydasında təqdim edilən xidmətlərə aid edilmir.

Beləliklə, dəyişikliyə əsasən, vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınmaqla ƏDV ödəyəcək. Həmin şəxslərin uçota alınması və uçotdan çıxarılması, ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edəcək.

***E.CƏFƏRLİ***



## Milli Məclisin iclasında...

# Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

*Nardar BAYRAMLI*

Fevralın 24-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 10 məsələ daxil edilib. Əvvəlcə çıxış edən spiker Sahibə Qafarova bildirib ki, Birinci Qarabağ müharibəsinin gedişində Ermənistan silahlı qüvvələri xalqımıza qarşı bir sıra soyqırımı cinayətləri törədiblər. Onun sözlərinə görə, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində törədilmiş soyqırımı aktı isə bütün insanlığa qarşı ən ağır cinayətlərdən biridir: "613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, 487 nəfər şikəst edilib, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalıb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyil".

S.Qafarova qeyd edib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında əldə etdiyi tarixi qələbələr sayəsində dövlətimizin ərazi bütövlüyü bərpa olunub və xalqımıza qarşı etnik təmizləmələrə və soyqırımı cinayətlərinə son qoyulub. Xocalı qurbanlarının qisası döyüş meydanında alınub.

Millət vəkilləri Xocalı soyqırımı qurbanlarının, bütün şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra deputatlar cari məsələlərlə bağlı çıxış ediblər. Millət vəkili Ceyhun Məmmədov bildirib ki, Qarabağ və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına 15 milyard manatdan artıq əlavə dəyər qatacağı gözlənilir ki, bu da işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialının kifayət qədər yüksək olduğunu göstərir. Onun sözlərinə görə, uzun müddət işğal altında qalmış torpaqlarımız bərpa edilir və yenidən qurulur. 75 mindən çox vətəndaşımızın yaşadığı və çalışdığı Qarabağ və Şərqi Zəngəzurda bu ilin sonunadək daha 80 min nəfərin yaşayaraq işləyəcəyi gözlənilir. Bu, ilin sonunadək işğaldan azad olunan ərazilərimizdə 150 mindən çox vətəndaşımızın yaşayacağı deməkdir.

Deputat Vüqar Bayamov isə çıxışı zamanı deyib ki, şanlı zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun bərpasına 23 milyard manata yaxın vəsait ayrılıb: "Bu, o deməkdir ki, yalnız dövlət büdcəsindən 2026-cı il daxil olmaqla, zəfərdən sonra işğaldan azad olunmuş ərazilərimizin bərpasına 26 milyard manatdan artıq vəsaitin ayrılması təmin ediləcək. Bu vəsait hesabına infrastrukturun yenidən qurulması, məskunlaşma üçün yaşayış evlərinin tikintisi, eyni zamanda sosial və kommunal xidmətlərin göstərilməsi ilə bağlı infrastrukturun bərpası və yenidən qurulması işləri daxildir".

Razi Nurullayev isə azad edilmiş ərazilərdə keçmiş məcburi köçkünlərin özlərinin də ev tikmələrinə şərait yaradılmasını təklif edib.

Millət vəkili Elman Nəsirov çıxışında qeyd edib ki, yeni dünya nizamı ilə bağlı müxtəlif platformalar formalaşdırılır. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu prosesdə fəal iştirak edir. Lakin bəzi dairələr Azərbaycanın bu uğurlarından çox narahat olur. "Son hadisə də bunu təsdiqləyir. Prezidentimiz Vaşinqtonda məlum toplantıdan sonra hotelə qayıdarkən törədilən təxribatın həm təşkilatçıları, həm də icraçıları bəllidir. Bu, məqsədyönlü və planlı şəkildə həyata keçirilən addımdır. Bu vəziyyətdə Azərbaycan Prezidentinin mühafizəçilərinin, eləcə də Birləşmiş Ştatlar polisinin atdığı addımlar adekvatdır. Belə də olmalıdır. Hər şey qanun çərçivəsində baş verib. Xatırlatmaq istəyirəm ki, cəmi iki-gün öncə Birləşmiş Ştatlarda Prezidentin Florida ştatındakı iqamətgahına bir nəfər basqın etməyə cəhd göstərib və yerindəcə güllələnib. Hesab edirəm ki, bundan sonra əlavə şərhə ehtiyac yoxdur",-deyə millət vəkili vurğulayıb.

Cari məsələlərlə bağlı çıxışlardan sonra gündəlikdə olan qanun layihələri müzakirə edilib. Əvvəlcə Milli Məclisin parlamentlərarası əlaqələr üzrə yeni işçi qrupları yaradılıb. Bununla bağlı "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə İşçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Milli Məclisin qərarına dəyişiklik edilib. Qərara əsasən, Milli Məclisin Keniya, Qambiya, Laos, Maldiv parlamentləri ilə işçi qrupları yaradılıb.

Belə ki, Azərbaycan- Keniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ramid Namazov, Azərbaycan - Qambiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eyvaz Qurbanov, Azərbaycan - Laos parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Gülşən Paşayeva, Azərbaycan - Maldiv parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri isə Azər Allahverənov təyin edilib. Qərar layihəsində həmçinin vurğulanıb ki, Azərbaycan-Nepal parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri deputat Vasif Qafarov təyin edilib.

İclasda "İnvestisiya fəaliyyəti haqqında" Qanuna üçüncü oxunuşda dəyişiklik edilib. Qeyd edilib ki, hazırda investisiyalar investordan dövlət tərəfindən iki əsasla - dövlət ehtiyacları üçün və rekviziya məqsədilə (təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda müvafiq dövlət orqanlarının qərarı ilə cəmiyyətin mənafeləri üçün) alına bilər. Hər iki halda investisiyanın dəyəri bu Qanunun 13.3-cü və 13.4-cü maddələrinə uyğun olaraq kompensasiya ödənişinin edilməsi yolu ilə investora ödənilir.

Təklif olunan dəyişiklik isə investisiyanın dövlət tərəfindən alınmasının yeni bir əsasını müəyyən edir. Bu strateji əhəmiyyətə malik investisiyalara münasibətdə Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya milli maraqlara zidd olan müstəsna halların qarşısını almaq məqsədilə investisiyaların dövlət tərəfindən alınmasıdır. Beləliklə, qanun layihəsi strateji əhəmiyyətə malik olan investisiyaların Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya respublikanın milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə dövlət tərəfindən alınmasının hüquqi əsasını formalaşdırır. Qeyd olunan məqsəd üçün investisiyaların alınması ümumi qaydada, yəni investisiyaların dövlət tərəfindən alınması əvəzində investorlara kompensasiya ödənilməklə həyata keçirilə bilər.

Deputatlar "Yerin təki haqqında" Qanuna təklif edilən dəyişiklikləri isə birinci oxunuşda qəbul ediblər. Dəyişikliklər yerin təkinin istifadəsi sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, təbii ehtiyatlardan istifadə olunmasının səmərəliliyinin yüksəldilməsinə, ekoloji təhlükəsizliyə, ekoloji balansın qorunmasına, dağ-mədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunmasına və istismara cəlb olunan yer təki sahələrinin rekultivasiya tədbirlərinin sistemli aparılmasına xidmət edəcək.

Bundan əlavə, "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişikliklər də birinci oxunuşda qəbul olunub. Qeyd edilib ki, son illərdə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının bütün növləri üzrə ciddi islahatlar həyata keçirilib, qanunvericilik təkmilləşdirilib, son nəticədə daşımaların keyfiyyəti yüksəldilib. Görülən işlərin davamı olaraq avtomobil nəqliyyatı ilə daşımanın bir növü olan ölkədaxili sifarişli daşımalar (buraya taksi minik avtomobili ilə sərnişin daşımaları istisna olmaqla, qeyri-müntəzəm sərnişin daşımaları və ölkədaxili yük daşımaları aiddir) sahəsində, xüsusilə bu fəaliyyətə icazə verilməsi sahəsində təkmilləşdirilmənin aparılmasına ciddi zərurət yaranıb. Bir tərəfdən qeyri-müntəzəm sərnişin daşımalarına tələbatın artması, digər tərəfdən isə bu nəqliyyat vasitələrinin iştirakı ilə ağır yol-nəqliyyat hadisələrinin baş verməsinin yüksək olması təklif olunan dəyişikliklərin edilməsini labüd edir.

Qanun layihəsi sərnişinlərin və yüklərin daşınmasında təhlükəsizlik səviyyəsinin yüksəlməsinə, keyfiyyətli xidmətin göstərilməsinə xidmət edir, müxtəlif sığorta hadisələri zamanı sığortaolunanların, xüsusilə zərərçəkən sərnişinlərin qorunmasına və onların həyatına və sağlamlığına zərər dəyməsinə görə sığorta təminatı yaradır.

Qeyd edək ki, iclasın gündəliyində olan digər qanun layihələri də qəbul olunub.

Sonra spiker Sahibə Qafarova parlamentin növbəti iclasının fevralın 27-də keçiriləcəyini bildirib.

# Beynəlxalq ictimaiyyət Xocalı soyqırımına hüquqi qiymət verməlidir

İllər ötdükcə ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecədə Xocalıda törətdikləri qətliamın miqyası daha aydın dərk olunur. Bir soyuq qış gecəsində şəhərə ağır texnika ilə hücum çəkilməsi və onun yerlə-yeksan edilməsi indiyədək bəşəriyyətin üzləşdiyi ən ağır müharibə cinayətlərindən biridir. Təsadüfi deyildir ki, bu faciə dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda kimi soyqırımları ilə müqayisə olunur.

Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Xocalı soyqırımının ildönümü ilə əlaqədar beynəlxalq təşkilatlara bəyanat ünvanlayıb. Bəyanat Xocalı soyqırımının ildönümü ilə əlaqədar Xankəndidə yerləşən Qarabağ Universitetində keçirilən tədbirdə səsləndirilib.

**Sistemli və məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsi**

Tarix boyunca imperialist güc mərkəzləri tərəfindən dəstəklənən ermənilər Azərbaycan xalqına qarşı dəfələrlə özlərinin mənfur niyyətlərini ortaya qoyublar. Xalqımız təkcə XX əsrdə indiki Ermənistan ərazisində 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə olmaqla düz 4 dəfə dəhşətli deportasiyalara məruz qalıb. Bu siyasət keçmiş Dağlıq Qarabağ münaqişəsinin mövcud olduğu dövrdə daha amansız şəkildə davam etdirilib və çoxsaylı müharibə cinayətləri törədilib.




Xocalı faciəsi bu müharibə cinayətləri arasında xüsusi amansızlıqla törədilməsi ilə diqqət çəkir. Ombudsman Səbinə Əliyevanın yaydığı bəyanatda Xocalı faciəsi Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş məkrli siyasətin tərkib hissəsi kimi dəyərləndirilib. Bəyanatda oxuyuruq: "26 fevral 1992-ci il tarixində Xocalı şəhərində 106-sı qadın, 63-ü uşaq və 70-i ahıl olmaqla, ümumilikdə, 613 nəfər dinc və silahsız mülki əhalinin etnik mənsubiyyətinə görə məqsədli şəkildə, ağır işgəncələrə məruz qalaraq qətlə yetirilməsindən 34 il ötür.

Ermənistan silahlı qüvvələrinin keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının bilavasitə iştirakı ilə Xocalı şəhərində məhz etnik azərbaycanlı olduqlarına görə mülki əhalinin amansızcasına qətlə yetirilməsi Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş sistemli və məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsi olmuşdur".

Bütövlükdə, Xocalı faciəsinin miqyası çox böyükdür. Soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edilib, 130 uşaq bir valideynini, 25 uşaq isə hər iki valideynini itirib, habelə 68-i qadın, 26-sı uşaq olmaqla 1275 nəfər girov götürülüb, bir sıra digər ağır müharibə cinayətləri törədilib. "Soyqırımı cinayətinin əlamətlərini özündə ehtiva edən bu ağır cinayət əməli bəşər tarixinin ən faciəvi səhifələrindən biri olmaqla, fundamental insan hüquq və azadlıqlarının kobud şəkildə pozulmasıdır. Əvvəlcədən planlaşdırılmış bu cinayətlər etnik azərbaycanlıları milli əlamətlərinə görə qətlə yetirmək, onları tarixən yaşadıqları torpaqlardan zorla didərgin salmaq, əhali arasında qorxu və vahimə yaratmaq məqsədi daşımışdır", - deyə ombudsman vurğulayıb.

**Beynəlxalq hüququn kobud şəkildə pozulması**

Ötən əsrin doxsanıncı illərinin əvvəlində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə başlaması, torpaqlarımızı zəbt etməsi beynəlxalq hüquqla daban-dabana ziddiyyət təşkil edirdi. Təəssüf ki, beynəlxalq qurumlar Ermənistanın aqressiyasına adekvat qiymət vermədilər, təcavüzkar dövlət cəzalandırılmadı və tarixi ədaləti, beynəlxalq hüququ otuz ildən sonra Azərbaycanın özü təmin etmək məcburiyyətində qaldı.

O cümlədən Xocalı faciəsinin törədilməsi də beynəlxalq hüququn kobud şəkildə pozulması demək idi. Ombudsmanın bəyanatında bu məqama xüsusi diqqət çəkilərək vurğulanıb: "Xocalı soyqırımı törədilən zaman beynəlxalq insan hüquqları hüququ, beynəlxalq humanitar hüquq normaları, o cümlədən "Mülki və siyasi hüquqlar haqqında", "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktların, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə", "Uşaq hüquqları haqqında", "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında", həmçinin "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə konvensiyalarının müddəaları, xüsusilə insanların yaşamaq, şəxsi toxunulmazlıq, mülkiyyət, işgəncəyə məruz qalmamaq və digər fundamental hüquqları kobud şəkildə pozulmuşdur".

Əlbəttə, Xocalı faciəsinin baş verməsində o dövrdə respublikamızda hakimiyyətdə olan qüvvələrin də məsuliyyəti var. Həmin ərəfədə ermənilərin silahlanmasına, hücuma keçməyə hazırlaşmalarına aid xəbərlər gəlirdi. Xocalı sakinlərinin yaratdıqları yerli özünümüdafiə dəstələrinin müqavimətinə baxmayaraq, şəhər ətrafında mühasirə həlqəsi getdikcə daralırdı. Bakıdan, respublika rəhbərliyindən kömək istənilirdi. Bununla belə, xocalıların fəryadına ögey münasibət bəslənildi. Şəhərin müdafiəsi, oradan əhalinin çıxarılması üçün hansısa bir tədbir görülmədi və nəticədə faciə qaçılmaz oldu.

Eyni zamanda, siyasi çəkişmələrin nəticəsi olaraq 1992-ci ilin yazında qeyri-qanuni yolla hakimiyyətə gələn AXC- "Müsavat" iqtidarı Xocalı faciəsinə hüquqi-siyasi qiymət verməyə tələsmədi. Xocalı faciəsinə siyasi qiymət 1993-cü ilin yayında xalqın tələbi ilə Azərbaycanın siyasi hakimiyyətinə qayıdan böyük siyasətçi Heydər Əliyevin təkidli səyləri sayəsində verilib. Bəyanatda bu mühüm məqama, həmçinin "Xocalıya ədalət" kampaniyasına diqqət çəkilərək vurğulanıb: "Xocalı soyqırımına ilk siyasi-hüquqi qiymət Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan



Respublikasının Milli Məclisi tərəfindən verilmiş və 26 fevral tarixi Xocalı Soyqırımı Günü kimi elan olunmuşdur.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması, bu cinayət əməlinə hüquqi və siyasi qiymətin verilməsi məqsədilə davamlı olaraq həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası bu soyqırımı hadisəsi ilə bağlı beynəlxalq səviyyədə məlumatlılığın artırılması və ədalətin bərqərar olunması baxımından mühüm əhəmiyyət kəsb edir".

**Təqsirkar şəxslərin hamısı ədalət mühakiməsinə cəlb edilməlidir**

Vətən müharibəsindən və lokal xarakterli antiterror əməliyyatından sonra işğaldan azad olunmuş ərazilərimizdə, o cümlədən Xocalı şəhərində yenidənqurma işləri sürətlə aparılır, sakinlər öz doğma torpaqlarına qayıdırlar.

Həmin ərazilərdə aparılan bərpa və quruculuq işləri zamanı kütləvi məzarlıqlar aşkarlanıb, işgəncələrə məruz qalaraq qətlə yetirilmiş insanların qalıqları tapılaraq identifikasiya edilib və dəfn olunub. Bəyanatda bildirildiyi kimi, bu faktlar Xocalı soyqırımının və törədilmiş ağır müharibə cinayətlərinin danılmaz və təkzibedilməz sübutlarıdır.

Xocalı soyqırımında və xalqımıza qarşı törədilən cinayətlərdə iştirak edən bir sıra şəxslər lokal xarakterli antiterror əməliyyatından sonra həyata keçirilən tədbirlər zamanı tutulub və artıq onlar beynəlxalq hüquq normaları nəzərə alınmaqla Azərbaycan Respublikasının milli qanunvericiliyi çərçivəsində mühakimə olunurlar. "Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini dərin ehtiramla yad edir, beynəlxalq təşkilatları və dünya ictimaiyyətini XX əsrin ən qanlı qətliamlarından biri sayılan bu soyqırımı cinayətinə hüquqi qiymət verilməsi, dəhşətli cinayət əməlinin törədilməsində təqsirkar şəxslərin hamısının ədalət mühakiməsinə cəlb edilməsi istiqamətində qətiyyətli addımlar atmağa dəvət edirəm", - deyə ombudsman vurğulayıb.

Xatırladaq ki, bəyanat BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan hüquqları üzrə ali komissarına, BMT-nin Qaçqınlar üzrə ali komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, Türk Dövlətlərinin Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, həmçinin Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

*Mübariz ABDULLAYEV*

# Xalq şairi Nəriman Həsənzadəyə "Heydər Əliyev" ordeni təqdim edilib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev dövlətimizin başçısının tapşırığına uyğun olaraq, mədəniyyətimizin inkişafında müstəsna xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif edilmiş Xalq şairi Nəriman Həsənzadəni evində ziyarət edib və ali mükafatı ona təqdim edib.

AZƏRTAC xəbər verir ki, Samir Nuriyev 95 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın salamlarını və səmimi təbriklərini Nəriman Həsənzadəyə çatdırıb.

Görüş zamanı Nəriman Həsənzadənin Azərbaycan ədəbiyyatına verdiyi töhfələr, milli-mənəvi dəyərlərin təbliği istiqamətində uzun illər ərzində göstərdiyi xidmətlər xüsusi vurğulanıb. Bildirilib ki, onun çoxşaxəli yaradıcılığı və ictimai fəaliyyəti Azərbaycan ədəbiyyatının, mədəniyyətinin zənginləşməsinə mühüm töhfə verib, gənc nəsillərin vətənpərvərlik ruhunda formalaşmasında əhəmiyyətli rol oynayıb.

Xalq şairi göstərilən yüksək diqqətə və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığını ifadə edib, milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin qorunub saxlanmasına, mədəniyyət, incəsənət və digər sahələrin inkişafında xidməti olan şəxslərə dövlət dəstəyini yüksək qiymətləndirib.

**Dövlət Komissiyasının 17-ci iclasında əməkdaşlığın artırılmasını nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb**

# Azərbaycan və İran yeni iqtisadi prioritetləri müəyyənləşdirib

Bakıda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 17-ci iclası keçirilib. Baş nazirin müavini, komissiyanın Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayev bildirib ki, Azərbaycan və İran arasında münasibətlərin ortaq tarixi, mədəni və dini dəyərlər, dostluq və qonşuluq prinsipləri əsasında qurulduğu, ikitərəfli əlaqələrin dinamikasının həcmi iki ölkə rəhbərlərinin siyasi iradəsinə əsaslanır və bütün sahələri əhatə edir.

Ş. Mustafayev qeyd edib ki, Ağbənd-Kəlalə avtomobil körpüsünün tikintisi artıq başa çatıb və sərhəd-gömrük infrastrukturunun inşası tamamlandıqdan sonra körpünün istismara verilməsi nəzərdə tutulur. Sözügedən layihə Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvanla ən qısa və səmərəli marşrutla birləşdirəcək, eyni zamanda, Fars körfəzi ilə Qara dənizi əlaqələndirən əlverişli avtomobil marşrutunun mühüm tərkib hissəsini təşkil edəcək.

## "Şimal-Cənub", "Trans-Xəzər" quruculuğu

Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı, regionun logistik imkanlarının və tranzit potensialının genişlənməsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin əsas elementi hesab edilən Rəşt-Astara dəmir yolu xəttinin tikintisi geniş müzakirə olunub. Azərbaycan bu nəhəng tranzit arteriyasının qurulması üçün öz ərazisində bütün lazımi infrastruktur layihələrini həyata keçirib və hazırda artan yükləri nəzərə alaraq öz nəqliyyat imkanlarını və infrastrukturlarını daha da genişləndirir. Şimal-Cənub nəqliyyat dəhlizinin daşıyıcılıq gücününü artırılması yönündə İran və Rusiyanın nəqliyyat xətlərinin əlaqələndirməsini təmin etmək məqsədilə birgə modernləşmə işləri aparılır. Plana əsasən, "Ulyanovsk-Bakı - Astara" marşrutu "Orta Volqa - Xəzər dənizi - Fars körfəzi" logistika zəncirinə qoşulacaq, eyni zamanda, Azərbaycan və İranın dəmir yolları birləşdiriləcək. Həmçinin Şimal-Cənub marşrutunun "Trans-Xəzər" bölməsinin də bu inteqrasiya blokuna cəlb edilməsi istiqamətində də fəal iş aparılmaqdadır.

Tərəflər, həmçinin Orta-Mərkəzi Asiya-Xəzər tranziti üzrə dəhlizin daşınma rejiminin asanlaşdırılması üçün tariflərinə yenidən baxılmasını, güzəştli ticarət rejiminin yaradılmasını vacib sayır. Eyni zamanda, sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələrinin sərhəddən keçməsi prosesi, gömrük yoxlaması və sənədlərin rəsmiləşdirilməsi qaydasının asanlaşdırılması, daha açıq və hesabatlı tranzit formatının təşkili məqsədilə rəqəmsal platformanın qurulması təklif olunub. Ümumilikdə, məqsəd bu nəqliyyat dəhlizinin gücünün daha da artırılması üçün Xəzər klasteri zonasında bütün tərəflərin dəniz-liman infrastrukturu və konteyner qovşaqlarının, dəmir yolu şəbəkələrinin əlaqələndirilməsi, vahid yükdaşıma sisteminin yaradılmasıdır.



Bu tədbirlərin başa çatdırılması Şimal-Cənub istiqamətində daşımaların həcmini əhəmiyyətli dərəcədə artıracaq və çatdırılma müddətini qısaldacaq.

## Ticarət dövriyyəsinin artırılması üçün addımlar atılacaq

İran və Azərbaycan ikitərəfli iqtisadi təmasların keyfiyyətini artırmaqla bərabər, üçtərəfli əməkdaşlıq layihələrinin genişlənməsində səyləri genişləndirməklə bölgənin ümumi rifahına töhfə vermək niyyətindədir. İran İslam Respublikasının yol və şəhərsalma naziri, komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadiq isə vurğulayıb ki, Azərbaycan ilə İran arasında ticarət-iqtisadi, nəqliyyat, energetika, su, humanitar və digər sahələrdə əlaqələrin hazırkı vəziyyəti qaneedicidir, inkişaf perspektivləri üçün imkanlar böyükdür. Bunun üçün komissiyanın həmsədrləri iqtisadi strukturlar və biznes dairələri arasında müntəzəm görüşürlərin təşkilini də vacib hesab etdiklərini bildirblər. İki ölkə arasındakı ticarət dövriyyəsi 1 milyard dollardan az olmaqla tərəfləri qane etmir. Növbəti illərdə ticarət dövriyyəsinin artırılması üçün konkret addımlar atılacaq və mövcud statistik rəqəmlərin dəfələrlə artmasını gözləmək mümkündür. Eləcə də qarşılıqlı sərmayə qoyuluşu, müştərək müəssisələrin yaradılması və digər buna oxşar təşəbbüslərdə maraqlar üst-üstə düşür və bu istiqamətdə təsirli addımların atılacağı istisna deyil. Bəyan edildiyi kimi, hazırda çoxtərəfli əməkdaşlıq üçün gözəl şərait var və bu möhkəm sütunlar üzərində iqtisadi- ticarət əlaqələrini inkişaf etdirmək üçün iradə də mövcuddur.




Hər iki tərəf yeni bizneslərin açılması, yeni sənaye müəssisələrinin yaradılması üçün imkanları birləşdirmək üçün daha çox işləmək niyyətindədir. Bu istiqamətdə müxtəlif stimulların, təşviqedici alətlərin tətbiqi də istisna olunmur. Vergi sistemi, tariflər, sərmayə iqlimi, biznes sahəsindəki qanunvericilik məsələlərində birgə güzəştlərin edilməsi planlaşdırılır.

Komissiyasının iclasında birgə həyata keçirilən mühüm layihələrin rifah və əməkdaşlığa töhfə verəcəyi, regionun logistik imkanlarının və tranzit potensialının genişlənməsinə, eləcə də enerji dayanıqlılığının təmin edilməsində yeni imkanlar yaradacağı vurğulanıb. Yekunda həmsədrlər tərəfindən komissiyanın iclasının nəticələrinə dair Anlaşma Memorandumu imzalanıb.

*E.CƏFƏRLİ*

# Kağızdan monitora...

## Təhsilin rəqəmsal inqilabı!

*Yeganə BAYRAMOVA*

Texnologiyalar həyatımızın bütün sahələrinə təsir göstərib. Bu gün təhsilin elektronlaşması, yəni tədris prosesinin rəqəmsal texnologiyalar vasitəsilə həyata keçirilməsi dünyanın bir çox ölkəsində əsas təhsil modelinə çevrilməkdədir. Ənənəvi sinif otaqları tədricən virtual platformalarla əvəz olunur, dərsliklər elektron kitablara çevrilir, müəllim və şagird arasındakı ünsiyyət isə onlayn mühitdə davam edir.

**Dünya təcrübəsindən nümunələr**

Estoniya rəqəmsal transformasiyanın liderlərindəndir. Buradakı məktəblərdə elektron gündəlik və qiymətləndirmə sistemi, onlayn dərs resursları, rəqəmsal şəxsiyyət vəsiqəsi ilə təhsil xidmətlərinə giriş mövcuddur.

Pandemiya dövründə Estoniya təhsili demək olar ki, fasiləsiz davam etdirdi. Çünki sistem artıq hazır idi.

**Finlandiya: Texnologiya + pedaqogika**

Finlandiya rəqəmsal vasitələri sadəcə texniki yenilik kimi deyil, pedaqoji yanaşma kimi tətbiq edir. Burada şagirdlər layihə əsaslı öyrənir, kodlaşdırma erkən yaşdan tədris olunur, müəllimlər rəqəmsal bacarıqlar üzrə davamlı təlim keçirlər.

**Cənubi Koreya - Tam rəqəmsal dərsliklər**

Cənubi Koreya kağız dərslikləri mərhələli şəkildə elektron kitablarla əvəz edib. Şagirdlər planşet vasitəsilə video izahları izləyir, interaktiv testlər həll edir, müəllimlə real vaxtda əlaqə saxlayırlar. Bu yanaşma həm çanta yükünü azaldır, həm də öyrənməni daha cəlbedici edir.

**Yeni dövr başlayır**

Dünən "Təhsilin rəqəmsallaşması" mövzusunda brifinq keçirilib. Tədbir Elm və Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin təşkilatçılığı ilə baş tutub. Brifinqdə ölkənin təhsil sistemində rəqəmsal transformasiya istiqamətində görülən işlər, tətbiq edilən yeni texnoloji həllər, elektron xidmətlərin genişləndirilməsi və rəqəmsal platformaların inkişaf perspektivləri barədə ətraflı məlumat verilib.

Tədbir çərçivəsində həmçinin təhsil sahəsində innovativ yanaşmaların tətbiqi, idarəetmədə informasiya texnologiyalarının rolu, eləcə də gələcək layihələr və prioritet istiqamətlər media nümayəndələrinin diqqətinə çatdırılıb.

**Şagirdlərin 80 faizdən çoxu internetə çıxış imkanına malikdir**

Elm və Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov bildirib ki, 2020-ci ildən etibarən məktəblərdə daha yaxşı internet və kompüterlərlə təminat həyata keçirilir. O, qeyd edib ki, hazırda şagirdlərin 80 faizdən çoxu internetə çıxış imkanına malikdir: "Hər il nazirlik tərəfindən 40-50 min kompüter məktəblərə verilərək təhsil müəssisələrinin texniki infrastrukturunun gücləndirilməsi təmin olunur".




V.Xanlarov qeyd edib ki, təhsil xidmətləri "myGov" platformasına inteqrasiya olunub, rəqəmsal məzmun istifadəçilərinin sayı 530 minə çatıb: "Azərbaycanda təhsilin rəqəmsallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində 8 növ təhsil xidməti "myGov" (mobil və veb-portal) platformasına inteqrasiya edilib. Platforma vasitəsilə vətəndaşlar müxtəlif məlumatları əldə edə bilirlər. Hazırda 3 elektron xidmət icra olunur. Bunlara ali və orta ixtisas təhsili pillələri üzrə təhsilalanların köçürülməsi, ali və orta ixtisas təhsili müəssisələrinə abituriyentlərin elektron qeydiyyatı, eləcə də məktəbəqədər təhsil müəssisələrinə uşaqların elektron qəbulu daxildir".

V.Xanlarov bildirib ki, 40-dan çox informasiya sistemi və informasiya ehtiyatı Vahid Giriş Sisteminə - MyGovID/SİMA-ya qoşulub, bütün informasiya sistemləri və ehtiyatlar Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilib.

**Müəllimlər üçün hazırlanmış süni intellekt aləti**

İdarə rəisi bildirib ki, "Microsoft" və Elm və Təhsil Nazirliyinin birgə təşəbbüsü ilə müəllimlərə dəstək üçün hazırlanmış "Copilot" tətbiqi təhsil mühitinin tələblərinə uyğunlaşdırılmış süni intellekt alətidir.

O, vurğulayıb ki, bu texnologiya tədris materiallarının hazırlanmasına, mürəkkəb mətnlərin təhlilinə, dərslərin planlaşdırılmasına, ideyaların strukturlaşdırılmasına, rəqəmsal məzmunun yaradılmasına imkan verir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti üzrə hazırlanmışdır**

**Bütün təhsil sənədləri elektronlaşdırılacaq**

V.Xanlarovun sözlərinə görə, bu tədris ilindən etibarən süni intellekt daha geniş tətbiq ediləcək. O, qeyd edib ki, tədris ilinin sonunda təhsil sənədləri elektron şəkildə qəbul ediləcək: "Bu məsələ ilə bağlı hazırda işlər görülür. Bütün təhsil sənədləri tamamilə elektron şəkildə olacaq. Bir neçə ay ərzində, əgər şagirdlərə sənəd lazım olarsa, kağız şəklində verilə bilər. Lakin bu tədris ili başa çatdıqdan sonra bütün sənədlər yalnız elektron formada veriləcək. Bu, sənədlərin təqdim edilməsini daha sürətli və təhlükəsiz edəcək. Əvvəllər sənədlər aylarla gözlənilirdi, amma indi elektron sistem vasitəsilə 10 gün ərzində əldə edilə biləcək".

# Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin üçtərəfli görüşü keçirilib



Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan Parlamentlərinin Xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli görüşü keçirilib.

Tədbirin gedişatında üçtərəfli əlaqələrin inkişaf dinamikasından məmnunluq ifadə edilib.

Hər üç ölkədən olan komitə sədrləri və üzvləri ölkələrimiz arasında müxtəlif sahələrdə - enerji, tranzit, iqtisadi, turizm və digər məsələlərdə artan əməkdaşlıq səviyyəsi barədə danışıblar.

Azərbaycan, Türkiyə və Gürcüstan tandeminin təkcə region üçün yox, həm də Avropa üçün mühüm rol oynadığı, qitənin enerji təhlükəsizliyinə töhfə verdiyi vurğulanıb.

Komitə üzvləri çıxışlarında təmsil etdiyi ölkələrin qlobal böhranlara münasibətini, onların həlli istiqamətində etdiyi təklifləri, üçtərəfli əməkdaşlığın artırılmasının perspektivlərini və digər mövzuları bəyan ediblər, həmçinin bu cür görüşlərin Azərbaycan, Türkiyə, Gürcüstan rəsmiləri arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə kömək etdiyini bildiriblər.

İclasın gedişatında həm də yaranmaqda olan və yarana biləcək potensial qlobal və regional çağırışlara, ölkələrarası gərginliklərə münasibətdə Bakı-Tbilisi-Ankara əməkdaşlıq oxunun birgə cavab verməsi perspektivləri təklif edilib.

Bundan əlavə, insan və mineral resurslarının səmərəli istifadəsi, süni intellekt, texnoloji inkişaf, media və təhsil sahələrində qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi barədə təkliflər irəli sürülüb.

Azərbaycan, Türkiyə və Gürcüstan Parlamentlərinin Xarici əlaqələr komitələrinin 11-ci üçtərəfli görüşünün Tbilisi də keçirilməsi razılaşdırılıb.

# Ceyhun Bayramov Türkiyə və Gürcüstan parlamentariləri ilə əməkdaşlığı müzakirə edib



Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komitəsinin sədri Fuat Oktay və Gürcüstan Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Nikoloz Samxaradzenin başçılıq etdiyi nümayəndə heyətlərini qəbul edib.

Görüş zamanı, Azərbaycan-Türkiyə arasında müttəfiqlik və Azərbaycan-Gürcüstan arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, eləcə də geniş bölgədə təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Görüşdə, parlamentlərarası əməkdaşlığın genişləndirilməsinin, xüsusilə xarici əlaqələr komitələri arasında müntəzəm təmasların əhəmiyyəti diqqətə çatdırılıb. Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclasının münasibətlərə əlavə təkan verdiyi məmnunluqla qeyd olunub.

Tərəflər parlamentlər ilə yanaşı, xarici işlər və müdafiə nazirləri arasında üçtərəfli əməkdaşlıq formatlarının regionda sülh, sabitlik, təhlükəsizlik və rifahın möhkəmləndirilməsinə töhfə verdiyini qeyd ediblər. Enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri, o cümlədən Orta Dəhlizin inkişafı, regional iqtisadi inteqrasiya müzakirə olunan əsas mövzular sırasında olub.

Bununla yanaşı, postmünaqişə dövründə regionda davamlı sülhün və sabitliyin təmin olunması, normallaşma prosesi və parlament diplomatiyasının bu istiqamətdə rolu barədə fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov Azərbaycan-Ermənistan sülh və normallaşma prosesi barədə ətraflı məlumat verib, ölkəmizin atdığı addımları və gözləntilərimizi diqqətə çatdırıb.

# Dərhal dayandırılmalıdır!

## Böyük Britaniyada başlanan əsassız və qərəzli "sorğu prosesi"

Azərbaycan Cənubi Qafqazda formalaşdırdığı yeni geosiyasi reallıqla regionun təhlükəsizlik arxitekturasını əsaslı şəkildə dəyişib. Uzun illər davam edən münaqişə və qeyri-müəyyənlik mərhələsindən sonra yaranmış sabitlik mühiti təkcə hərbi-siyasi deyil, həm də iqtisadi və nəqliyyat baxımından yeni münasibətlər sisteminin yaranmasını şərtləndirib. Rəsmi Bakının atdığı siyasi addımlar postmünaqişə mərhələsində davamlı sülhün təmin olunmasına, dövlət suverenliyinin tam bərpasına və iqtisadi reinteqrasiyanın sürətləndirilməsinə hesablanıb. Bu kontekstdə beynəlxalq platformalarda aparılan fəal diplomatiya xüsusi əhəmiyyət daşıyır. Ötən ilin avqustunda Vaşinqton şəhərində keçirilən zirvə görüşü də regionla bağlı müzakirələrin qlobal müstəviyə daşınması baxımından diqqət çəkmişdi.

Həmin görüşdən sonra bəzi anti-Azərbaycan mərkəzləri, erməni lobbisinin "köhnə havalar" üzərində yenidən fəallaşması isə təsadüfi sayıla bilməz. Xüsusilə Avropa məkanında müəyyən dairələrin separatizmə dolayı və ya açıq dəstək xarakterli təşəbbüslərlə çıxış etməsi müşahidə olunur. Erməni lobbisinin təsiri altında olan bu qruplar, bəzən isə şəxslər müxtəlif ölkələrdə müəyyən qərəzli dinləmələr və hüquqi əsası olmayan çağırışlarla, əsassız sorğularla gündəmə gəlməyə çalışırlar. Lakin bu cəhdlər nə regiondakı real vəziyyəti dəyişir, nə də beynəlxalq hüququn prinsiplərinə təsir göstərir. Əksinə, bu fəaliyyətlər daha çox siyasi manipulyasiya və informasiya təzyiqi aləti kimi çıxış edir.

Təəssüfləndirici haldır ki, belə təşəbbüslər bəzən Azərbaycana dost və tərəfdaş kimi tanınan ölkələrdə də özünü göstərir. Halbuki həmin dövlətlər birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıyır, regionda yaratdığı yeni təhlükəsizlik mühitinin əməkdaşlıq üçün əlavə imkanlar açdığını təsdiqləyir. Nəticə etibarı ilə, aydın olur ki, bu kimi addımlar dövlətin iradəsindən kənarda - sadəcə erməni lobbisi ilə bu və ya digər şəkildə əlaqəsi olan şəxslər üzərindən aparılır. Məsələn, Böyük Britaniyada baş verən sorğu prosesi kimi...

## "Sorğu" obyektiv araşdırma məqsədi daşımır

Qeyd edək ki, Böyük Britaniyada "Dağlıq Qarabağda erməni mədəni irsinin məhv edilməsi" barədə sorğu elan edilib. Sorğunun təşkilatçısı isə Beynəlxalq Vəkillər Assosiasiyasının İnsan Hüquqları İnstitutunun rəhbərliyidir. Bununla bağlı Azərbaycandan bir qrup QHT rəhbəri Böyük Britaniya parlamentinin İcmalar Palatasının spikeri Lindsay Hoyleyə, Lordlar Palatasının spikeri Lord Forsyth of Drumleanə, Beynəlxalq Vəkillər Assosiasiyasının prezidenti Claudio Viscoya və Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Aulda açıq məktubla müraciət edib. Müraciətdə bildirilir ki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur. Qarabağ bölgəsi Azərbaycanın suveren ərazisidir və bu, Böyük Britaniya da daxil olmaqla beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə tanınır: "Bu səbəbdən sorğuda "Dağlıq Qarabağ" termini hüquqi və tarixi baxımdan yanlışdır və ondan istifadə edilməsi qəbuledilməzdir. Bu, Azərbaycan dövlətinin ərazi bütövlüyünə və suverenliyinə qarşı yönəlmiş çirkin siyasi kampaniyadır. Bu cür yanaşma sorğunun obyektivlik və hüquqi etibarlılıq meyarlarına cavab verməyəcəyini indidən nümayiş etdirir".

Məktubda o da vurğulanır ki, Ermənistan və Azərbaycan arasında münaqişə başa çatıb, hər iki dövlət sülh prosesində böyük tərəqqi əldə edib, ötən il avqustun 8-də Vaşinqtonda keçirilən Zirvə Görüşü zamanı paraflanıb. İndiki şəraitdə belə bir sorğunun regiondan kənar aktorlar tərəfindən aparılması onun əsas niyyət və məqsədi haqqında böyük suallar doğurur. "Bu təşəbbüsün məqsədi iki ölkə arasında normallaşma prosesini pozmaq və inamı sarsıtmaq, revanşizmi alovlandıraraq separatçı meyilləri canlandırmağa hesablanıb. Bu isə Azərbaycan və Ermənistan arasında normallaşma prosesini ilk gündən dəstəkləyən, hər iki ölkə ilə artıq strateji tərəfdaşlıq quran Britaniya hökumətinin marağında olmamalıdır. O zaman Britaniya parlamentarilərinin qoşulduğu bu təşəbbüs kimlərin maraqlarına xidmət edir?", - deyə bildirilən məktubda o da qeyd olunur ki, sorğunun suallarının məzmunu və forması onun obyektiv araşdırma məqsədi daşımadığını açıq şəkildə ortaya qoyur. Suallar faktların neytral şəkildə müəyyən edilməsinə xidmət etmək əvəzinə, sanki artıq "pozuntu"nun "baş verdiyi" fərziyyəsini irəli sürür. Suallarla tanış olan hər kəs aydın şəkildə görə bilər ki, bu sorğu beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür yaratmağa yönəlmiş, qərəzli və müəyyən maraq qrupları siyasi sifarişi əsasında hazırlanmış ssenaridir.




## Məqsəd Britaniyanın normallaşma səylərinə dəstəyini səngitməkdir

Məktubda həmçinin bildirilir ki, panelin tərkibi və orada təmsil olunan şəxslərin keçmişdəki ziddiyyətli və qərəzli fəaliyyətləri onların bu prosesdəki neytrallığı ilə bağlı ciddi suallar doğurur. Paneldə təmsil olunan britaniyalı deputatlar ötən onilliklər ərzində davamlı anti-Azərbaycan mövqe sərgiləyən şəxslərdir. Maraqlıdır ki, paneldə keçmişdə Ermənistanın Azərbaycana qarşı təcavüzünü və işğalçılıq siyasətini dəstəkləyən ənənəvi parlamentarilərdən başqa mövzu üzrə neytral mövqeyə malik heç bir parlamentari daxil edilməyib: "Belə olan halda, sorğunun obyektivliyinə kim ümid bəsləyə bilər? Aydındır ki, burada məqsəd hər hansı obyektiv hüquqi nəticəyə gəlmək deyil, artıq mövcud olan qərəzli mövqeyi Britaniya parlamentində aktiv saxlamaqla normallaşma səylərinə Britaniya hökumətinin dəstəyini səngitməkdir. Həmçinin sorğunun ilkin mərhələsində Azərbaycanın heç bir rəsmi qurumu ilə əlaqə saxlanılmayıb, toplanan məlumatlar isə yoxlanılmayıb və təsdiqlənməyib. İkinci mərhələdə isə sorğu çərçivəsində suallar yalnız elektron poçt vasitəsilə cavablandırılır ki, bu da prosesin şəffaflığı ilə bağlı haqlı suallar yaradır".




## "Sorğu" prosesinin dərhal dayandırılması tələb edilir...

Qeyd olunur ki, sorğu çərçivəsində Britaniya parlamentində fevralın 25-də keçiriləcək ilk dinləmədə Beynəlxalq Vəkillər Assosiasiyasının İnsan Hüquqları İnstitutunun (IBAHRI-nin) dəvəti əsasında "Center for Justice and Truth" adlı QHT-nin müvafiq hesabat təqdim etməsi gözlənilir. CFJT-nin internet səhifəsində yerləşdirilən hesabatda regionun tarixi geniş şəkildə təhrif olunub, separatizm prizmasından təqdim edilib, Qarabağın Azərbaycan ərazisi olması faktı sual altına alınıb. IBAHRI-nin parlamentdəki ilk dinləmə üçün bu cür qərəzli təşkilata müraciət etməsi sorğunun ümumi məqsədinin nədən ibarət olduğunu bir daha ortaya qoyur. "Otuzillik işğal dövründə Ermənistan hakimiyyəti tərəfindən Qarabağda və Şərqi Zəngəzurda, həmçinin Ermənistanda Azərbaycan xalqına məxsus yüzlərlə mədəni, dini və tarixi irs nümunələri sistemli şəkildə dağıdılıb, təhqir olunub və mənsəyi təhrif edilib. Eyni zamanda, Azərbaycan xalqına qarşı etnik təmizləmə, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər törədilib. Bəs nə üçün IBAHRI sözügedən beynəlxalq hüquq pozuntularına diqqət yetirmir? Bu cür yanaşma hüquqi obyektivlik və qərəzsizlik prinsipləri ilə uyğun gəlirmi?", -deyə məktubda vurğulanıb. Məktubu imzalayan QHT nümayəndələri sorğunun təşəbbüskarlarının fəaliyyətinin Böyük Britaniya Parlamentinin müvafiq etik mexanizmləri çərçivəsində - Britaniya hökumətinin regionla bağlı rəsmi xarici siyasət kursunu sabotaj edən addım kimi araşdırılmasını tələb edir və bu qərəzli yanaşmanı hüquqi siyasi məqsədlər naminə alətə çevrilməsi presedenti kimi kəskin pisləyir, sorğu prosesinin dərhal dayandırılmasını tələb edir. Məktubda həmçinin Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auldunin məsələni təxirə salınmadan araşdırmağa və baş verən bu təxribatı dayandırmaq üçün fəaliyyətə çağırış əksini tapır.

Açıq məktubu imzalayıblar:

1. Əmir Əliyev - "İnsan Hüquqlarının Təşviqi Mərkəzi" İctimai Birliyinin sədri
2. Rizvan Nəbiyev - "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin İdarə Heyətinin üzvü
3. Novella Cəfərova - "D.Əliyeva adına Azərbaycan Qadın Hüquqlarının Cəmiyyətinin Müdafiə Cəmiyyəti" İctimai Birliyinin sədri
4. Səadət Bənənyarlı - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri
5. Səidə Qocamanlı - "İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyinin sədri
6. Əlimməmməd Nuriyev - "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri
7. Zaur İbrahimli - Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü
8. Oğuz Məmmədov - "Zəngi - Tarixi İrsin Öyrənilməsi" İctimai Birliyinin sədri
9. Dilqəm Əhməd - "Çapar" Milli İrsin Tədqiqi Mərkəzi İctimai Birliyinin sədri
10. Fariz Xəlilli - "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri
11. Xalid Kazımov - "Regional İnsan Hüquqları və Media Mərkəzi" İctimai Birliyinin sədri
12. İradə Rzazadə - "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri.

## Böyük Britaniya Azərbaycanın yaxın tərəfdaşıdır

Postmünaqişə dövründə formalaşmış yeni reallıq dəyişməzdir: Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin edib, regionda güc balansı və təhlükəsizlik sistemi yenidən qurulub. Bu şəraitdə separatizmi təşviq edən və ya dolayısı ilə legitimləşdirməyə çalışan təşəbbüslər nə hüquqi, nə də siyasi baxımdan perspektiv vəd edir. Əksinə, bu cür addımlar sülh gündəliyinə zərbə vurur və konstruktiv dialoq mühitini zəiflədir. Xüsusilə belə halların Böyük Britaniya kimi Azərbaycanla yaxın tərəfdaş münasibətlərinə malik bir ölkədə baş verməsi təəssüf doğurur. İki ölkə arasında enerji, investisiya, təhlükəsizlik və təhsil sahələrində uzun illərə dayanan strateji əməkdaşlıq mövcuddur. Böyük Britaniya şirkətlərinin Azərbaycanın enerji sektorundakı rolu, eləcə də siyasi dialoqun yüksək səviyyəsi münasibətlərin qarşılıqlı etimada əsaslandığını göstərir. Belə bir fonda anti-Azərbaycan mahiyyətli qrupların fəaliyyəti nə iki ölkə arasındakı tərəfdaşlıq ruhuna uyğundur, nə də regional sabitlik maraqlarına xidmət edir. Bu, daha çox ayrı-ayrı lobbi dairələrinin təsiri ilə formalaşan epizodik təşəbbüslər təsiri bağışlayır və dövlətlərarası münasibətlərin strateji xəttini əks etdirmir.

**P. SADAYOĞLU**

# “S&P Ratings”dən nikbin bəyanat

## Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması bölgənin inkişafında yeni mərhələni formalaşdıracaq

“S&P Global Ratings” (S&P) beynəlxalq agentliyi Ermənistan və Azərbaycan arasında diplomatik və ticarət münasibətlərinin normallaşdırılması istiqamətində atılan müsbət addımların bölgənin inkişafında ümidverici perspektivlər vəd etdiyini açıqlayıb. Agentliyin ekspert qrupu qeyd edilir ki, 2025-ci ilin avqustunda ABŞ-ın vasitəçiliyi ilə əldə olunmuş razılaşma mühüm siyasi mərhələ olmaqla təhlükəsizlik mühitinin sabitləşməsinə töhfə verib. Normallaşma istiqamətində atılan ilk addımlar regional nəqliyyat əlaqələrinin və ticarətin müəyyən qədər yaxşılaşmasına gətirib çıxarıb. İki dövlət arasında danışıqlarda əldə olunan irəliləyişlər təhlükəsizlik risklərini azaldaraq davamlı sülh sazişinin perspektivi üçün hüquqi qüvvəyə malik baza hazırlamaqdadır.




Agentliyin ekspert qrupunun dəyərləndirmələrinə əsasən, Azərbaycan və Ermənistan suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və diplomatik münasibətlərin qurulmasını nəzərdə tutan hərtərəfli sülh sazişini imzaladıqdan sonra regionda geosiyasi və təhlükəsizlik mühiti yaxşılaşacaq, geniş əməkdaşlıq potensialını təmin edən yeni mərhələni formalaşdıracaq.

**Regionda geniş investisiya və iqtisadi artım potensialı yaranacaq**

“S&P Global Ratings” hesab edir ki, rəsmi sülh müqaviləsinin imzalanması bölgədə əlverişli və geniş investisiya mühitinin yaxşılaşmasına səbəb olacaq, iqtisadi artım potensialını yüksəldəcək. Bu və digər amillər Azərbaycanın kredit reytinin yüksəlməsi üçün də münbit potensialı artıracaq. Geosiyasi risklərin azalması və fiskal buferlərin möhkəmlənməsi şəraitində Azərbaycanın kredit reytinqinin yüksəlməsi gözləniləndir. Buna iqtisadi-maliyyə-investisiya seqmentlərindəki amillərlə yanaşı, bölgədə yaranana siyasi faktorların-sülh və rifah quruculuğu yönündə atılan iradəli addımların da təsirləri istisna deyil.

Xatırladaq ki, Azərbaycan beynəlxalq kapital bazarlarına çıxışın asanlaşdırılması, borclanma prosedurlarının tənzimlənməsi, beynəlxalq maliyyə dairələri tərəfindən ölkəmizə etimadın daha da gücləndirilməsi məqsədilə 2000-ci ildən etibarən beynəlxalq kredit reytinq agentlikləri ilə əməkdaşlıq edir. Bu dövr ərzində aparıcı üç beynəlxalq reytinq agentliyi - “Fitch”, “S&P Global Ratings” və “Moody’s”la əməkdaşlıq həyata keçirilib, rəsmi müqavilə çərçivəsində ödənişli əsaslarla, eyni zamanda müqavilə öhdəlikləri olmadan agentliklər tərəfindən ölkəmizin suveren kredit reytinqi qiymətləndirilib. 2024-cü ildə “Fitch Ratings”, 2025-ci ildə isə “Moody’s Ratings” agentliyi tərəfindən ölkəmizin suveren kredit reytinqi artırılaraq investisiya dərəcəsinə yüksəldilib. Həmin agentliklər tərəfindən “BBB-” və “Baa3” səviyyəsinə qaldırılan suveren reytinqimiz üzrə növbəti dövr üçün proqnoz da müvafiq olaraq “stabil” və “müsbət” olaraq qiymətləndirilib. Eləcə də “S&P Global Ratings” agentliyi Azərbaycan üzrə reytinq əmsalını “BB+/B” şkalasında təsdiqləyib, eyni zamanda, “sabit”dən “müsbət”ə dəyişib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investorlarının daim diqqət mərkəzindədir.

**Azərbaycanın reytinqi “sabit”dən “müsbət”ə dəyişdirilib**

“S&P”, eyni zamanda, cari ildə Azərbaycanın bank sektorunun risk qiymətləndirməsini də yaxşılaşdırıb. Tədqiqat qrupunun açıqlamasında bildirilir ki, iqtisadi artım üçün əlverişli perspektivlər, kreditlərə yüksək tələbat, xüsusilə pərakəndə satış, yaxşı maliyyələşdirmə və likvidlik göstəriciləri, eləcə də sabit gəlirlilik 2026-cı ildə bankların kredit reytinqlərini də müsbət çərçivədə qərarlaşdırmağa imkan verəcək. İnfrastruktur investisiyaları və əsas faiz dərəcəsinin azalması 2026-2027-ci illərdə kredit portfelinin ikirəqəmli artımına səbəb olacaq. Bütün bunların fonunda bankların tikinti sektorunda və ipoteka kreditləşməsində məhdud iştirakı risk səviyyəsini qismən azaldır və tendensiya davam edəcək.

“S&P Global Ratings” vurğulayır ki, tənzimləyici qurum (Mərkəzi Bank) son iki ildə banklar üçün yeni korporativ idarəetmə standartlarını, əlaqəli tərəflərlə sövdələşmələri məhdudlaşdıran tənzimləməni, həmçinin Bazel III tələblərinə uyğun olan likvidliyin idarə edilməsi normalarını tətbiq edib. Bu təşəbbüslərin səmərəli şəkildə həyata keçirilməsi Azərbaycanda banklara nəzarət və tənzimləmə sistemini daha da gücləndirə bilər. Reytinq agentliyi hesab edir ki, ölkəmizdə bank sektoru üçün gözlənilən risklər qlobal iqtisadiyyatdakından daha azdır. Bank sektorlarında tənzimləmə, nəzarət və korporativ idarəetmə inkişaf edir.

Yuxarıdakı amillər və digər qiymətləndirmə indikatorları nəzərə alınaraq qiymətləndirmə əmsalı “sabit”dən “müsbət”ə dəyişdirilib. “S&P” analitiklərinin fikrincə, maliyyə institutlarına nəzarət və tənzimləmənin yaxşılaşdırılması istiqamətində davam etdirilən təşəbbüslər reytinq üzrə yeni imkanları gücləndirəcək.

**Yeni investisiya reytinqi üçün gözləntilər**

“S&P Global Ratings” agentliyinin yeni proqnozları ona dəlalət edir ki, Azərbaycanın güclü milli valyuta ehtiyatları və suveren fondları milli valyutanın sabitliyi üçün də dayanıqlılığı təmin edir. Yəni mövcud ehtiyat portfeli manatın xarici valyuta qarşısında məzənnəsinə ciddi təsir və təzyiq edəcək amilləri tamamilə neytrallaşdırır. Reytinqdə əsas faktorlardan biri kimi xarici borc amili də mühüm yer tutur. Azərbaycan hazırda regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır.

Agentliyin Azərbaycanın kredit reytinqi ilə bağlı nikbin proqnozu investisiya və maliyyə sektorları üçün də ümidverici ssenarilərə zəmin yaradır. Respublikamızın potensial investor və dünyada sərmayəçi ölkə kimi imicinin möhkəmlənməsinə də beynəlxalq inamı artırır. Eyni zamanda, “S&P”in yaxın müddətdə Azərbaycanın kredit reytinqinin yenidən yüksəldəcəyinə və investisiya səviyyəsinə yüksəldəcəyinə zəmin yaradır.

*E.CƏFƏRLİ*

# 3-cü hökumət istefaya göndərildi...

*Mübariz FEYİZLİ*



Daim azad yaşamağa can atan Azərbaycan xalqı XX yüzillikdə iki dəfə müstəqil dövlət qurmağa nail olub. 1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurası Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycanın istiqlaliyyəti haqqında bəyannaməni qəbul edib. Bununla da Azərbaycan Şərqdə ilk demokratik respublikanın əsasını qoyub.

AXC-nin cəmi 23 ay mövcudluğu dönəmində bir neçə hökumət təşkil edilib. Tarixin bu günündə - 25 fevral 1919-cu ildə AXC parlamentində Xoyskinin rəhbərlik etdiyi üçüncü hökumət istefaya göndərillib və 4-cü hökumətin formalaşdırılmasına qərar verilib.

**N.Yusifbəylinin rəhbərliyi ilə formalaşan yeni hökumət kabineti**

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası (hökumət) AXC-nin ali icra hakimiyyəti orqanı idi. Parlament qarşısında məsuliyyət daşıyırdı. Azərbaycan Milli Şurasının fəaliyyət göstərmədiyi dövrdə qanunvericilik fəaliyyətini də yerinə yetirirdi.

AXC-nin Tiflisdə Fətəli xan Xoyskinin rəhbərliyi ilə formalaşan birinci hökuməti Gəncədə fəaliyyət göstərib. Fətəli xan Xoyski - Nazirlər Şurasının sədri və daxili işlər naziri vəzifələrini tutub. AXC-nin birinci və ikinci hökuməti son dərəcə mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, bir sıra mühüm qərarların qəbul edilməsinə nail olub. 1918-ci il dekabrın son ongünlüyündə təşkil olunan üçüncü hökumət də Fətəli xan Xoyskinin rəhbərliyi altında fəaliyyət göstərib. Lakin üçüncü hökumətin ömrü az olub. Belə ki, 1919-cu ilin yanvar-fevral aylarında keçirilən parlament iclaslarında Fətəli xan Xoyski hökuməti kəskin surətdə tənqidlərə məruz qalıb. Əsassız tənqidlərlə barışmayan Fətəli xan Xoyski hökumətin istefası barədə parlamentə məktub göndərib. Parlamentin 1919-cu il fevralın 25-də keçirilmiş iclasında Xoyski hökumətinin istefası qəbul olunub və yeni hökumətin təşkilinə qədər onlardan öz fəaliyyətlərini davam etdirmək xahiş edilib.

Yeni - dördüncü hökumət kabinetinin təşkili Nəsib bəy Yusifbəyliyə tapşırılıb. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Nəsib bəy Yusifbəyli birinci hökumətdə maliyyə və xalq maarifi naziri vəzifəsini, 2-ci və 3-cü hökumətlərdə isə xalq maarifı və dini etiqad naziri vəzifələrini tutub. Xatırladaq ki, Xalq Maarifi Nazirliyinin həyata keçirdiyi ilk tədbirlərdən biri Azərbaycan dilinin dövlət dili elan edilməsi idi. Bu vəzifəni həyata keçirmək üçün isə təhsil sistemini milli zəmin üzərində tamamilə yenidən qurmaq və Azərbaycan dilini mükəmməl bilən ixtisaslı milli kadrlar yetişdirmək tələb olunurdu. Məhz buna görə N.Yusifbəylinin təqdimatı ilə hökumət 1918-ci il avqustun 28-də Azərbaycan məktəblərinin milliləşdirilməsi haqqında qərar qəbul edib. Xalq Maarif Nazirliyinin səyləri nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 637 ibtidai və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi.

## AXC-də 4-cü hökumət necə formalaşmışdı?

Nəsib bəy Yusifbəylinin qurduğu 4-cü hökumət 1919-cu il aprelin 14-də elan olunub. N.Yusifbəyli yeni hökumətdə baş nazir vəzifəsindən əlavə, daxili işlər naziri vəzifəsini də tuturdu.

**Daxili və xarici siyasət prioritetləri**

Aprelin 14-də parlamentdə daxili və xarici siyasət haqqında hökumət proqramı ilə çıxış edən N.Yusifbəyli bildirib ki, hökumətin xarici siyasət sahəsində başlıca məqsəd və vəzifəsi böyük dövlətlərin Azərbaycanın istiqlaliyyətini tanımasına nail olmaq, ölkənin ərazi bütövlüyünü qoruyub saxlamaq, daxili siyasət sahəsində isə iqtisadiyyatı dirçəltmək, əhalinin sosial rifahını yaxşılaşdırmaq, demokratik azadlıqları, o cümlədən söz, mətbuat, yığıncaq və s. azadlıqları təmin etməkdir. Yusifbəylinin başçılıq etdiyi hökumət Denikin qüvvələrinin xaricdən, bolşeviklərin isə daxildən törətdikləri təhlükələrlə qarşılaşırdı.

Denikin təhlükəsi ilə bağlı AXC hökuməti Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul edib. Yusifbəylinin 1919-cu ilin dekabrında özünün təşkil etdiyi ikinci hökumət kabineti 1920-ci ilin martına kimi fəaliyyət göstərib. Yusifbəylinin baş nazir olduğu dövrdə Azərbaycan xalqının tarixində ən mühüm hadisə 1920-ci il yanvarın 11-də Azərbaycanın istiqlaliyyətinin böyük dövlətlər tərəfindən de-fakto tanınması olub. Bu münasibətlə yanvarın 14-də Yusifbəyli Azərbaycan xalqına müraciət ünvanlayıb.

# Bir gündə iki etimadsızlıq...

## Fransada hökumət böhranı pik həddə çatdı

Son bir il ərzində Fransada sosial-iqtisadi və siyasi mühit kəskin şəkildə mürəkkəbləşib. Yüksək inflyasiyanın təsirləri, dövlət borcunun artması, büdcə kəsirinin Avropa İttifaqı meyarlarını aşması və sosial xərclərin azaldılması planları cəmiyyətdə narazılığı gücləndirib. Xüsusilə 2026-cı ilin dövlət büdcəsinin parlamentdən keçməməsi ölkədə institusional bloklanma yaradaraq 2025-ci ilin sonlarında hökumət böhranını dərinləşdirib.

Qeyd edək ki, büdcə layihəsinin qəbul edilməməsi təkcə maliyyə sənədinin gecikməsi deyil, həm də icraedici hakimiyyətlə qanunverici orqan arasında dərin siyasi uçurumun göstəricisi kimi qiymətləndirilir. Müxalif qüvvələr hökuməti sosial ədalətsizlikdə, qeyri-effektiv iqtisadi idarəetmədə və ictimai dialoqu zəiflətməkdə ittiham edirlər. Nəticədə həm maliyyə bazarlarında təzyiq artıb, həm də ölkə daxilində etiraz aksiyaları intensivləşib. Bu isə nəticə etibarı ilə hökumətə qarşı etimadsızlıq mühitini daha da dərinləşdirir.

### “Sağlar” razılaşmır...

Yeri gəlmişkən, fevralın 23-də Fransa Assambleyasında iki dəfə hökumətə etimadsızlıq votumu verilib. İlk təklif Marin Le Penin rəhbərlik etdiyi Fransanın sağçı “Milli Birlik” Partiyası tərəfindən irəli sürülüb. Bəyanatda qeyd olunub ki, Nazirlər Kabineti tərəfindən qəbul edilmiş enerji strategiyası, digər iradlarla yanaşı, vergilərin və ya kommunal xidmət tariflərinin artmasına gətirib çıxara bilər, bu da fransızlara 300 milyard avrodan baha başa gələcək. Müxalifət partiyası hökumətin 2035-ci ilə qədər təsdiq edilmiş enerji strategiyası ilə razılaşmır - səsverməyə səbəb ölkənin növbəti 10 il üçün enerji siyasətini müəyyən edən üçüncü çoxillik enerji proqramı (PPE3) haqqında fərmanın dərc olunmasıdır. Partiya sənədin adekvat qanunvericilik bazası olmadan qəbul edildiyini bildirib. Çünki müvafiq enerji proqramlaşdırma qanunu parlament tərəfindən təsdiqlənməyib və müvafiq qanun layihəsi əvvəllər parlament üzvləri tərəfindən rədd edilib. “Milli Birlik” Partiyası hesab edir ki, hökumət Avropa Komissiyasının Bərpa Olunan Enerji Direktivlərinin (RED III) dəyişdirilməsi tələblərinə güzəştə gedib və bu, partiyanın fikrincə, Fransanın strateji maraqlarına ziddir. Fraksiyanın bəyanatında qəbul edilmiş proqramın bərpa olunan enerji mənbələrinin sürətləndirilmiş inkişafının nüvə sənayesini kifayət qədər dəstəkləmədiyi vurğulanıb.

Bundan əlavə, partiya iddia edir ki, proqramın həyata keçirilməsi xərclərin artmasına və dövlət maliyyəsinin üzərinə daha böyük yükün düşməsinə, eləcə də ev təsərrüfatları və müəssisələr üçün enerji qiymətlərinin artmasına səbəb ola bilər. Etimadsızlıq səsverməsi Fransa Konstitusiyasının 49-cu maddəsinə əsasən tətbiq edilib.



### Makron nə edəcək?

Vurğulayaq ki, bundan öncə, fevralın 20-də Fransa Prezidenti Emmanuel Makron gecikmələrlə qəbul edilən və parlamentdən keçə bilməyən 2026-cı il dövlət büdcəsi qanununu imzalayıb. 2026-cı il büdcəsində müdafiədən başqa bütün sahələrdə xərclərin azaldılması nəzərdə tutulur və burada 6,7 milyard avro artım planlaşdırılır. 2025-ci ildə büdcə kəsiri ÜDM-in 5,4 faizini təşkil edib ki, bu da kreditorların Fransaya olan inamını sarsıdıb. Hakimiyyət əvvəlcə kəsiri 2026-cı ildə 4,7 faizə endirməyi planlaşdırırdı, lakin müxalifət tərəfindən edilən düzəlişlərdən sonra onun 5 faizə çatacağı gözlənilir.

Siyasi ekspertlər yaranan vəziyyəti Prezident Emmanuel Makronun hakimiyyəti dövrünün ən mürəkkəb mərhələsi hesab edirlər. Parlamentdə sabit çoxluğun olmaması, hökumətin tez-tez etimad sınağı ilə üzləşməsi və sosial narazılığın artması onun siyasi manevr imkanlarını xeyli məhdudlaşdırıb. Makronun təşəbbüs göstərdiyi struktur islahatları - xüsusilə pensiya, sosial təminat və dövlət xərclərinin optimallaşdırılması istiqamətində atılan addımlar, o cümlədən son hadisədə olduğu kimi, enerji siyasəti geniş ictimai müqavimətlə qarşılanıb. Müxalifət isə onu kompromisə getməməkdə və cəmiyyəti daha da qütbləşdirməkdə günahlandırır. Bəzi siyasi şərhçilər artıq prezidentin səlahiyyət müddətini başa vurmadan istefa verməsi və ya növbədənkənar seçkilərə getməsi ehtimalını da müzakirə etməyə başlayıblar. Hərçənd bu ssenari hələlik rəsmi gündəmdə deyil, lakin siyasi təzyiqin artması belə ehtimalları tamamilə istisna etmir.

### Solçulardan etiraz...

İkinci etimadsızlıq səsverməsi isə solçu “La France Insoumise” partiyası tərəfindən irəli sürülüb. Bəyanat partiyanın sosial media hesabında dərc edilib. Bəyanatda partiyanın parlament müsbət rəyi olmadan təsdiqlənmiş 2035-ci il enerji strategiyasından narazılığı səbəbindən hökumətin istefasını tələb etdiyi izah olunur. “Bu yanaşma, ictimaiyyətin müzakirə hüququna məhəl qoymadan, təxminən on il qüvvədə qalacaq konkret şəxslərin qərarlarını bütün Fransaya qəbul etdirmək cəhdidir”, - deyə vurğulanır. La France Insoumise öz bəyanatında enerji strategiyasının ölkənin gələcək uzun illər inkişafını müəyyən edən vacib sənəd olduğunu və buna görə də müəyyən edilmiş parlament prosedurlarına əməl etmədən qəbul edilə bilməyəcəyini vurğulayır.

Vurğulayaq ki, hələ yanvar ayında baş naziri Sebastyan Lekornu hökumətin məsuliyyəti altında 2026-cı il dövlət büdcəsi qanununun qəbul ediləcəyini elan edəcəyini açıqlamışdı. O, bu məqsədlə Fransa Konstitusiyasının 49-cu maddəsinin 3-cü hissəsini tətbiq etmək niyyətində olduğunu bildirmişdi. Hələ o dövrdə “La France Insoumise” partiyasının parlament qrupunun lideri Matilda Pano qeyd etmişdi ki, “qrupumuz hökumətə etimadsızlıq səsverməsi üçün təklif təqdim edəcək”.

### Nələr gözlənilir...

Fransa Milli Assambleyasındakı hökumətə qarşı son etimadsızlıq təşəbbüsləri isə ölkədəki siyasi böhranın kulminasiya nöqtəsi kimi qiymətləndirilir. Müxalifət bloklarının kompromisə getməməsi əsas arqument kimi irəli sürülür. Siyasi mütəxəssislərin fikrincə, etimadsızlıq səsverməsi hökumətin legitimliyinə ciddi zərbə vurub və siyasi sistemdə parçalanmanı daha da dərinləşdirib. Bu proses bir neçə mümkün nəticə vəd edir:

- Hökumətin istefası və yeni kabinetin formalaşdırılması;
- Növbədənkənar parlament seçkilərinin elan olunması;
- Prezidentin parlamenti buraxmaq səlahiyyətindən istifadə etməsi.

Əks halda mövcud icra qrupunun zəifləməsi fonunda iqtisadi qeyri-müəyyənliyin artması müşahidə olunacaq. Mövcud vəziyyət göstərir ki, Fransada iqtisadi böhran artıq sırf maliyyə məsələsi olmaqdan çıxaraq sistemli siyasi qarşıdurmaya çevrilib. Əgər yaxın aylarda kompromis əldə olunmazsa, ölkəni həm daxili siyasi sabitlik, həm də Avropa miqyasında mövqeyi baxımından çətin bir mərhələ gözləyə bilər.

*P.İSMAYILOV*

# 20-ci paket qəbul edilmədi

## Macarıstan və Slovakiya "yox" deyir...

Ötən ilin oktyabrında Rusiyaya qarşı 19-cu sanksiya paketinin qəbulunun ardından növbəti 20-ci paketin anonsu səsləndirilmişdi. Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas bildirmişdi ki, Aİ ölkələri Rusiyaya iqtisadi təzyiqi davam etdirmək məqsədilə ölkəyə qarşı artıq növbəti sanksiya paketinin tətbiqi ideyasını dəstəkləyib. O qeyd etmişdi ki, Aİ Rusiyaya iqtisadi təzyiqi gücləndirmək və Ukraynaya maliyyə və enerji yardımının təqdim edilməsini sürətləndirmək niyyətindədir. Hətta 20-ci paketin qəbul edilməsi ilə bağlı razılıq da əldə olunmuşdu - Kallas vurğulamışdı ki, üzv dövlətlər artıq 20-ci sanksiya paketi ideyasını dəstəkləyib. Bu müzakirələrin üzərindən 4 aydan artıq keçsə də, 20-ci sanksiya paketi ərsəyə gələ bilmir - qoyulan vetolar buna imkan yaratmır.

### 20-ci paket: çoxmərhələli və zəngin....

Budəfəki sanksiya paketi əvvəlkilərdən fərqlənir - bu paket həm olduqca "zəngindir", həm genişmiqyaslıdır, həm də mərhələli şəkildə icra olunma tələb edir. Qeyd edək ki, Avropa Komissiyası Rusiyaya qarşı 20-ci sanksiyalar paketi üçün təklifini hələ fevralın əvvəlində təqdim edib. Təkliflərə əsasən, digər məsələlərlə yanaşı, Aİ Rusiya neft ixracı üçün dəniz xidmətlərinə tamamilə qadağa qoymağı və Rusiyanın tankerlər əldə etməsini daha da çətinləşdirməyi planlaşdırır. Sanksiyaların ikinci mərhələsində Aİ Rusiya bank sisteminə təzyiqi artırır. Bu tədbirlərin sanksiya altında olan malların qanunsuz ticarətini asanlaşdıran üçüncü ölkələrdəki banklara da təsir edəcəyi gözlənilir.

Üçüncü mərhələ ticarət məhdudiyyətlərinin sərtləşdirilməsini nəzərdə tutur. Aİ rezin şinlərdən və traktorlardan tutmuş kibertəhlükəsizlik xidmətlərinə qədər 360 milyon avrodan çox dəyərində mal və xidmətlərin ixracına yeni qadağalar qoymaq niyyətindədir. Həmçinin, 570 milyon avrodan çox dəyərində metallar, kimyəvi məhsullar və vacib minerallar üçün yeni idxal məhdudiyyətləri, eləcə də partlayıcı maddələrin istehsalı üçün materiallar da daxil olmaqla, hərbi malların və texnologiyaların ixracına əlavə qadağaların tətbiqi nəzərdə tutulur.

Eləcə də, 20-ci paketdə Aİ ilk antisanksiya alətini işə salacaq və CNC dəzgahlarının, radioların Rusiyaya təkrar ixrac etmək imkanı olan olan ölkələrə ixrac qadağan ediləcək. Avropa Komissiyası həmçinin Aİ şirkətlərini sanksiyalar səbəbindən Rusiyada əqli mülkiyyət hüquqlarının pozulmasından və ədalətsiz müsadirədən qorumaq məqsədilə gücləndirilmiş hüquqi təminatlar təklif edir.

Qeyd edək ki, ənənəvi qaydaya görə, sanksiyaların tətbiqi bütün Aİ üzv dövlətləri arasında konsensus tələb edir. Fevralın 20-də keiçirilən müzakirələrdə isə Aİ səfirləri Rusiyaya qarşı 20-ci sanksiya paketi ilə bağlı da razılığa gələ bilmədilər. "Bloomberg" yazır ki, fikir ayrılığı Rusiya neft ixracında iştirak edən xarici limanlara və banklara qoyulan məhdudiyyətlərlə bağlıdır. İtaliya və Macarıstan Gürcüstandakı Kulevi limanına, Yunanıstan və Malta İndoneziyanın Karimun limanına qoyulan məhdudiyyətlərə, Madrid və Roma isə Kuba bankına qoyulan sanksiyalara qarşı çıxıblar.

Fevralın 23-də baş tutan iclas da öncəkindən

### Yenidən veto qoyuldu - həm 20-ci paketə, həm də 90 milyardlıq yardıma

fərqlənməyib - bu dəfə Slovakiya və Macarıstan Rusiyaya qarşı 20-ci sanksiyalar paketinə və Ukraynaya 90 milyard avro həcmində kreditin verilməsinə veto qoyub. Bolqarıstanın xarici işlər naziri Nadejda Nevinskayanın sözlərinə görə, Macarıstan nümayəndəsi vetoya əsaslı arqumentlər səsləndirib. "Yeni sanksiya paketinin müzakirəsi Rusiya-Ukrayna müharibəsinin dördüncü ildönümü kontekstində xüsusi əhəmiyyət kəsb edirdi. Biz onu dəstəkləyirik, lakin indiki mərhələdə o, Slovakiya və Macarıstan tərəfindən bloklanıb. Hadisələrin bundan sonra necə inkişaf edəcəyini görəcəyik", - o, iclasın yekunlarına dair jurnalistlərə deyib.

Sloveniyanın xarici və Avropa işləri naziri Tanya Fayon isə 20-ci paket ətrafında qızğın müzakirələrin getdiyini bildirib. "Hər bir tərəf, o cümlədən Macarıstan, Slovakiya və Ukrayna öz mövqeyini təqdim edib. Başa düşdüyüm qədər, razılığa gəlmək məqsədilə veto qoyan hər iki ölkə ilə danışıqlar aparılır. Mən də ən qısa zamanda razılığın əldə olunmasına çağırıram", - Fayon deyib.

Macarıstanın xarici işlər naziri Peter Siyarto Brüsseldə keçirilən Aİ ölkələrinin xarici işlər nazirlərinin görüşünün nəticələrinə əsasən bildirib ki, veto qərarına Ukrayna üzərindən "Drujba" boru kəməri ilə Rusiyadan Macarıstana neft tədarükünün dayandırılması səbəb olub. "Açıq şəkildə bildirdim ki, biz Ukraynanın 90 milyard avro dəyərində kredit almasına dəstək verməyəcəyik, çünki ukraynalılar bizi şantaj edirlər", - macar nazir jurnalistlərə açıqlamasında qeyd edib.

Siyarto Macarıstana neft tədarükünün bərpasının Budapeştin mövqeyinin dəyişməsi üçün əsas şərt olduğunu vurğulayıb. "Bu bizim hazırkı mövqeyimizdir. Buna görə də bu gün nə sanksiyalar paketi, nə də Ukraynaya kredit verilməsi barədə qərar qəbul edilib", - nazir əlavə edib.

Slovakiyanın Baş naziri Robert Fitso da "Drujba" boru kəməri ilə neft nəqlinin dayandırılmasını tənqid edib və Kiyevin tranziti bərpa etməməsi halında Ukraynaya elektrik enerjisi tədarükünü dayandıra biləcəyi barədə xəbərdarlıq edib.




### Aİ narahatdır - 4-cü ilin ərəfəsində...

Aİ xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Rusiyanın Ukraynaya qarşı apardığı işğalçı müharibənin dördüncü ildönümü ərəfəsində Rusiyaya qarşı 20-ci sanksiya paketinin qəbul edilə bilinməməsindən təəssüfləndiyini bildirib. "Bu, uğursuzluqdur və göndərmək istədiyimiz mesaj deyil". Avropa diplomatiyasının rəhbəri Rusiyaya qarşı sanksiyaların sərtləşdirilməsi, Macarıstan və Slovakiya rəhbərliyini bu tədbirlərin zəruriliyinə inandırmaq üzərində işləməyə davam edəcəyinə söz verib. "Biz artıq oxşar ssenari ilə qarşılaşmışıq və birlikdə həll yolları tapa biləcəyimizi gördük. Hazırda bu tədbirlər paketini irəli aparmaq üçün müxtəlif səviyyələrdə macar və slovak həmkarlarımızla qarşılıqlı əlaqədəyik", - Kallas qeyd edib.

Onun sözlərinə görə, Aİ qonşusuna qarşı müharibəyə son qoymalı olan Rusiyaya davamlı dəstək və təzyiqin artırılması barədə aydın bir mesaj göndərməlidir.

Ukraynanın xarici işlər naziri Andriy Sibiha öz növbəsində Macarıstan və Slovakiyanı "konstruktiv əməkdaşlıq və məsuliyyətli hərəkətlər" etməyə çağırıb. O, hər iki ölkənin Avropa İttifaqını girov saxlamağı dayandırmalı olduğunu vurğulayıb.

### Budəfəki qadağalar...

Bəzi ekspertlərin fikrincə, 20-ci sanksiya paketində Rusiya neftini daşıyan tankerləri ələ keçirmək üçün əsaslar formalaşdırmaq təşəbbüsü Rusiyaya ciddi ziyan vəd etmir. Xatırladaq ki, Avropa Komissiyasının 20-ci sanksiya paketi layihəsində Rusiya neftinin çatdırılması ilə bağlı dəniz xidmətlərinə tam qadağa təklif olunur. Bu, G7 ilə razılaşdırılmış Rusiya neftinə mövcud qiymət limitini əvəz etmək üçün nəzərdə tutulan əsas müdəaalardandır. Bildirilir ki, sahil dövlətləri ərazi və ya daxili sularına daxil olan gəmiləri yoxlamaq hüququna malikdirlər. Lakin xarici gəmi eksklüziv iqtisadi zonada (ərazi dənizinin xaricində) olarsa, yoxlama səlahiyyəti əhəmiyyətli dərəcədə məhduddur.

Yeni Aİ sanksiya paketinin bir hissəsi olaraq, Rusiya neftinin dəniz nəqliyyatına qadağa qoyulması isə ixracata olduqca sərt təsir göstərə bilər. Ekspertlər bildirirlər ki, beynəlxalq hesablamalara görə, bəzi ixrac məhsulları Yunanıstan gəmiləri vasitəsilə tranzit edilir - məhdudiyyətlərə məruz qala biləcək məqamın da bu olacağı proqnozlaşdırılır. Çünki Avropaya neft ixracının təxminən 30-40 faizi Avropa gəmiləri, xüsusən də Yunanıstan gəmiləri vasitəsilə tranzit edilir.

*P.İSMAYILOV*

# "Drujba" neft kəməri ətrafında gərginlik

Avropada enerji təhlükəsizliyi yenidən qitə siyasətinin mərkəzi mövzusuna çevrilib. Sovet dövründən miras qalmış və onilliklər boyu Şərqlə Qərb arasında iqtisadi körpü rolunu oynamış "Drujba" ("Dostluq") neft kəməri bu gün artıq iqtisadi layihədən çox geosiyasi qarşıdurmanın simvoluna çevrilib. Ukrayna ərazisində yaranmış problemlər nəticəsində neft tranzitinin dayanması Avropa İttifaqı daxilində ciddi siyasi mübahisələrə səbəb olub və enerji məsələsinin yenidən strateji silaha çevrildiyini göstərib.

Məlum olduğu kimi, 2026-cı ilin 27 yanvar tarixindən etibarən Ukrayna ərazisindən keçən "Drujba" kəmərinin cənub qolunda təhlükəsizlik və texniki risklər səbəbindən neft axını dayandırılıb. Ukrayna tərəfi qərarı infrastruktur təhlükəsizliyi ilə izah etsə də, Mərkəzi Avropa ölkələri bunu siyasi qərar kimi qiymətləndirib.

## Avropanın enerji təhlükəsizliyi tarixi sınaq qarşısında

1964-cü ildə Sovet İttifaqı tərəfindən istifadəyə verilmiş "Drujba" kəməri tarixdə ən uzun neft kəmərlərindən biri sayılır. Ümumi uzunluğu 4 min kilometrdən artıq olan bu sistem Rusiya neftini Belarus, Ukrayna, Polşa, Almaniya, Slovakiya, Macarıstan və Çexiyaya çatdırır. Xüsusilə cənub marşrutu Slovakiya və Macarıstan üçün həyati əhəmiyyət daşıyır. Enerji analitiklərinin hesablamalarına görə, Slovakiya müəyyən dövrlərdə neft tələbatının 60-65 faizini, Macarıstan isə təxminən 40 faizini məhz bu xətt vasitəsilə təmin edib.

Neft tədarükünün dayanması dərhal siyasi böhrana səbəb oldu. Slovakiyanın Baş naziri Robert Fitso rəsmi açıqlamasında Ukraynanı tranzit öhdəliklərini pozmaqda ittiham edərək enerji təhlükəsizliyinin siyasi təzyiq vasitəsinə çevrilməsinin Avropa prinsiplərinə zidd olduğunu bildirdi. Fitso açıq şəkildə bəyan etdi ki, Slovakiya enerji təhlükəsizliyinə zərər vuruləcağı təqdirdə cavab addımlarını nəzərdən keçirə bilər. O, Brüsseli vəziyyətə müdaxilə etməyə çağırdı.

Macarıstanın Baş naziri Viktor Orban isə daha sərt mövqe sərgilədi. Orban bildirdi ki, Avropa İttifaqının sanksiya siyasəti nəticəsində enerji bazarında yaranan risklərin yükü əsasən Mərkəzi Avropa ölkələrinin üzərinə düşür. Budapeşt məsələni Avropa Şurasının gündəliyinə çıxarmağı tələb etdi.

### Qarşılıqlı asılılıq: enerji diplomatiyasının paradoksu

Maraqlı məqamlardan biri Slovakiyanın Ukraynanın enerji sistemində mühüm rol oynamasıdır. Statistik məlumatlara görə, Slovakiya Ukraynanın elektrik enerjisi idxalının təxminən 21 faizini təmin edir. Bu isə tərəflər arasında qarşılıqlı enerji asılılığının mövcud olduğunu göstərir. Ekspertlərin fikrincə, bu vəziyyət klassik geosiyasi paradoks yaradır: tərəflər bir-birindən asılı olduqları halda, eyni zamanda, siyasi təzyiq alətlərindən istifadə edirlər. Enerji böhranının əsas səbəbləri 2022-ci ilin fevralında başlayan Rusiya-Ukrayna müharibəsinə gedib çıxır. Müharibədən sonra Avropa İttifaqı Rusiyadan enerji asılılığını azaltmaq üçün geniş sanksiyalar tətbiq etdi və alternativ mənbələrə keçid strategiyasını elan etdi. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen həmin dövrdəki çıxışlarında Rusiyanın enerji resurslarından siyasi silah kimi istifadə etdiyini bildirmişdi. Lakin son hadisələr göstərdi ki, enerji infrastrukturu artıq bütün tərəflər üçün siyasi təsir vasitəsinə çevrilib.

Avropa Komissiyası hazırda mürəkkəb seçim qarşısındadır. Bir tərəfdən Ukraynanın

### Brüsselin çətin balans siyasəti

təhlükəsizlik maraqları və müharibə şəraiti nəzərə alınmalıdır, digər tərəfdən isə Aİ üzvü olan dövlətlərin enerji ehtiyacları təmin edilməlidir. Brüssel vasitəçilik təşəbbüsü ilə çıxış etsə də, kompromis tapmaq getdikcə çətinləşir. Çünki enerji artıq iqtisadi yox, strateji təhlükəsizlik məsələsinə çevrilib. Soyuq müharibə dövründə "Drujba" kəməri ideoloji rəqiblər arasında iqtisadi əməkdaşlığın nadir nümunələrindən sayılırdı. Hətta 1970-80-ci illərdə Qərbi Avropa dövlətləri sovet neftindən istifadə etməklə enerji sabitliyini qoruyurdu. Bu gün isə eyni kəmər siyasi qarşıdurmanın mərkəzində dayanır. Enerji marşrutları artıq dövlətlərin strateji təsir mexanizminə çevrilib.

### Yeni reallıq: enerji XXI əsrin əsas silahıdır

Müasir müharibələr yalnız tanklar və raketlərlə aparılmır. Boru kəmərləri, elektrik xətləri və logistika marşrutları geosiyasi təsirin əsas vasitələrindən birinə çevrilib. "Drujba" ətrafında yaranmış böhran Avropaya mühüm dərs verir: enerji təhlükəsizliyi artıq bazar məsələsi deyil, milli təhlükəsizlik məsələsidir. Bu gün Avropa qarşısında duran əsas sual dəyişilməz qalır: qitə enerji siyasətini iqtisadi prinsiplərlə idarə edəcək, yoxsa geosiyasi qarşıdurmaların diktə etdiyi yeni qaydalara uyğunlaşacaq? Mövcud vəziyyət göstərir ki, XXI əsrdə enerji artıq diplomatiyanın deyil, siyasətin ən sərt alətlərindən birinə çevrilməkdədir.

Enerji böhranının dərinləşməsi fonunda Avropada artıq təkcə mövcud tədarükün bərpası yox, gələcək enerji modelinin necə qurulacağı məsələsi müzakirə olunur. Fevral ayının əvvəlində Brüsseldə keçirilən Aİ enerji nazirlərinin qeyri-rəsmi toplantısında bir sıra ölkələr açıq etiraf etdilər ki, Rusiya enerji resurslarından sürətli imtina strategiyası planlaşdırıldığından daha mürəkkəb nəticələr doğurub. Xüsusilə Mərkəzi və Şərqi Avropa ölkələri infrastruktur baxımından alternativ marşrutlara tam hazır deyil. Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simson çıxışında bildirdi ki, Aİ son üç ildə mayeləşdirilmiş təbii qaz (LNG) idxalını rekord səviyyədə artırsa da, neft logistikasında köhnə boru kəmərlərinin rolunu qısa müddətdə əvəz etmək mümkün deyil. Onun sözlərinə görə, 2021-ci ildə Avropa İttifaqının neft idxalının təxminən üçdə biri Rusiya mənbələrindən gəlirdisə, 2025-ci ilin sonuna bu göstərici əhəmiyyətli dərəcədə azalsa da, bəzi ölkələr üçün alternativlər hələ də məhduddur.




Bu vəziyyət Macarıstan və Slovakiyanın mövqeyini daha da sərtləşdirib. Viktor Orban hökuməti artıq Adriatik dənizi üzərindən Xorvatiyanın "Omişal" limanı vasitəsilə neft idxalının artırılması variantını müzakirə edir, lakin logistika xərclərinin 20-30 faiz daha yüksək olması iqtisadi təzyiq yaradır. Slovakiya isə ölkənin əsas neft emalı zavodu olan "Slovnaft" müəssisəsinin texniki baxımdan əsasən "Drujba" marşrutuna uyğunlaşdırıldığını bildirir və sürətli transformasiyanın milyardlarla avro investisiya tələb etdiyini açıqlayır. Digər tərəfdən, Ukrayna rəhbərliyi enerji tranziti məsələsini təhlükəsizlik kontekstində qiymətləndirir. Kiyev hesab edir ki, müharibə şəraitində strateji infrastruktur qorunması prioritetdir. Ukrayna Prezidenti Volodimir Zelenski son çıxışlarından birində vurğulayıb ki, ölkə ərazisindən keçən enerji marşrutları artıq yalnız iqtisadi deyil, hərbi risk obyektidir və onların təhlükəsizliyi birbaşa milli müdafiə məsələsinə çevrilib.

Enerji böhranı Avropa daxilində siyasi parçalanmanı da gücləndirir. Almaniya və Fransa alternativ enerji mənbələrinə keçidi sürətləndirməyi dəstəklədiyi halda Mərkəzi Avropa dövlətləri keçid prosesinin daha mərhələli aparılmasını tələb edir. Almaniyanın iqtisadiyyat və iqlim naziri Robert Habek bildirib ki, bərpa olunan enerji layihələri sürətlə genişlənsə də, sənaye iqtisadiyyatı hələ uzun müddət sabit neft və qaz tədarükünə ehtiyac duyacaq. Eyni zamanda, enerji bazarlarında qiymət dalğalanması yenidən müşahidə olunmağa başlayıb. Yanvar hadisələrindən sonra Avropa birjalarında Brent markalı neftin qiyməti qısa müddətdə 5-7 faiz artdı. Analitiklər bunu fiziki çatışmazlıqdan daha çox bazarın psixoloji reaksiyası kimi qiymətləndirirlər, çünki enerji bazarları artıq hərbi və siyasi xəbərlərə birbaşa həssasdır. Maraqlıdır ki, ABŞ və Yaxın Şərq ölkələri yaranmış vəziyyətdən iqtisadi fayda götürə bilər. ABŞ-dan Avropaya LNG tədarükü 2023-2025-ci illərdə rekord səviyyəyə çatmış, artıq Vaşinqton Avropa bazarında əsas enerji tərəfdaşlarından birinə çevrilib. Səudiyyə Ərəbistanı və BƏƏ də Avropaya əlavə neft satışını artırmaq imkanlarını nəzərdən keçirir.

Beləliklə, "Drujba" ətrafında yaranmış böhran yalnız 1 boru kəmərinin fəaliyyəti ilə bağlı texniki problem deyil. Bu hadisə Avropanın enerji keçidinin nə qədər mürəkkəb və siyasi baxımdan həssas olduğunu üzə çıxardı. Qitə indi tarixi seçim qarşısındadır: ya enerji sistemini köklü şəkildə yenidən qurmaq, ya da uzun illər formalaşmış infrastrukturdan asılılığın yaratdığı risklərlə yaşamaq. Aydın görünür ki, XXI əsrin geosiyasətində enerji artıq iqtisadi resursdan çox, strateji güc amilidir və "Drujba" böhranı bu reallığın yalnız başlanğıcı ola bilər.



***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Ramazan ayı 7-ci günün duası

**Allahummə əinni fihi əla siyamihi və qiyamih. Və cənnibni fihi min həfəvatihi və asamih. Vərzuqni fihi zikrəkə bidəvaih. Bitəvfiqikə ya hadiyəl-muzillin.**

**Tərcüməsi:**

**İlahi, mənə bu gün oruc tutmaqda və gecə oyaq qalıb ibadət etməkdə kömək ol. Bu gün məni səhv ıə nöqsanlardan uzaqlaşdır. Sənin daimi zikrini mənə qismət et. Kömək və yardımına and verirəm, ey yolunu azmışların hidayətçisi!**

# Cibimizi boşaldan israfçılıq...

## Yas mərasimlərindəki maddi yük azaldılmalıdır

Dəbdəbəli, israfçılıqla müşayiət olunan yas mərasimləri cəmiyyətdə birmənalı qarşılanmasa da, hələ də belə mərasimlərə rast gəlmək mümkündür. Zaman-zaman yas mərasimlərinin daha sadə keçirilməsi üçün kifayət qədər müzakirələr aparılıb, çağırışlar edilib, tövsiyələr verilib, hətta ortaya nümunələr də qoyulub. Lakin bəzi insanlar maddi imkanları olmasa belə, cəmiyyət içində hörmət qazanmaq üçün ehsana nəyi var pul xərcləyirlər. Əks halda xəsis damğası ilə üzləşməkdən qorxurlar. Bu, sanki bir növ sosial şantajdır, yəni sən istəməsən də, “camaat nə deyər?” təzyiqi sənin yerinə qərar verir...

Bu günlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollegiya iclası keçirilib. Kollegiyanın üzvləri, Dövlət Komitəsinin tabeliyindəki qurumların və struktur bölmələrin rəhbərlərinin iştirak etdiyi iclasda ötən ildə görülmüş işlərin nəticələri təhlil edilib, 2026-cı ildə qarşıda duran vəzifələr müzakirə olunub.

Komitədən bildirilib ki, kollegiya iclasında yas mərasimlərində israfçılığın aradan qaldırılması üçün cəmiyyətdə ümumi konsensusun əldə olunmasının zəruriliyinə toxunulub. Qeyd olunub ki, Dövlət Komitəsi dəbdəbəli yas mərasimlərinin

### İsrafçılığın aradan qaldırılması üçün...

keçirilməsinin qarşısının alınması istiqamətində irəli sürülən ictimai təşəbbüsləri müsbət qiymətləndirir və bu cür təşəbbüslərə dəstək verməyə davam edəcək. Komitə tərəfindən hazırlanmış normativ-hüquqi akt layihələri və qanunvericilik təşəbbüsləri, eləcə də gündəlikdə olan digər məsələlər barədə məruzələr dinlənilib.



### “Qonşudan geri qalmamaq” misalı

Sosioloq Üzeyir Şəfiyev “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, yas mərasimlərinin təşkili cəmiyyətimizdə daim müzakirə olunan bir məsələdir və ümumiyyətlə ehsan verilməsi bir sıra rayonlarda haqlı olaraq ictimai qərar əsasında qadağan olunub. Onun sözlərinə görə, bu, əslində cəmiyyətin özünü tənzimləmə mexanizminin düzgün işlədiyini göstərən çox müsbət bir haldır: “Arzu olunur ki, oxşar qərarlar bütün Azərbaycanda da tətbiq olunsun, çünki bu cür mərasimlər çox vaxt artıq və lüzumsuz xərclərlə müşayiət olunur. Müvafiq xərclər daha çox sosial auditoriyaya hesablanmış, “qonşudan geri qalmamaq” düşüncəsinin nəticəsi olan davranışlardır. Belə adətlərin yığışdırılması həm sosial, həm də iqtisadi baxımdan daha məqsədəuyğundur”.

### Dəbdəbəli ehsanların ölüyə heç bir faydası yoxdur

Ü.Şəfiyevin sözlərinə görə, yas mərasimlərin daha təvazökar və sadə keçirilməsi doğrudur: “İnsanlara gərək sağlıqlarında dəyər verək. Ölümündən sonra göstərilən dəbdəbəli ehsanların ölüyə heç bir faydası yoxdur və bu, yalnız el-aləmə göstərmək məqsədi daşıyır. Valideynlərinə və yaxınlarına sağlıqlarında dəyər verməyən, amma ölümündən sonra böyük xərclərlə mərasim keçirən insanların davranışı isə bəzən cəmiyyətdə ikrah və qınaq da doğurur”.

Sosioloq qeyd edib ki, eyni sözləri baş daşları ilə bağlı da demək mümkündür: “Bəzən ölən şəxsə dəbdəbəli, bahalı baş daşları da qoydururlar. Bu da eyni şəkildə göstəriş xarakteri daşıyır və heç bir real mənası yoxdur. Üstəlik, dini dəyərlərimizə də uyğun deyil. İslama görə, qəbir sadə olmalı, zaman keçdikcə təbii şəkildə itməlidir ki, 30-40 ildən sonra həmin yerdə başqa bir dəfn mümkün olsun. Ona görə də baş daşlarına həddindən artıq

### Qəbir daşlarına həddindən artıq pul xərcləmək...

pul xərcləmək həm dini, həm də sosial baxımdan əsaslı deyil. Bu sahədə ictimai tənzimlənməyə ehtiyac var və cəmiyyət özü bu istiqamətdə addımlar atmalıdır. Burada əsas rol dövlət və rəsmi qurumlara deyil, ictimaiyyətə düşür. Ümid edirəm ki, proses daha da sürətlənəcək və nəticədə Azərbaycanda bu kimi dəbdəbəli və mənasız adətlər tədricən aradan qalxacaq”.

***Yeganə BAYRAMOVA***

# Azercell “Böhran İdarəetmə Qrupu” çərçivəsində dayanıqlı rabitə modelini gücləndirir

***Böhran idarəetməsi üzrə tərəfdaş qurumlar arasında strateji dialoq baş tutub***




Ölkənin lider mobil operatoru “Azercell Telekom” MMC böhran vəziyyətlərində rabitə infrastrukturunun fasiləsizliyinin təmin edilməsinə yönəlmiş “Böhran İdarəetmə Qrupu” (BİQ) layihəsinin növbəti mərhələsinə start verib. Layihə çərçivəsində milli səviyyədə koordinasiyalı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və telekommunikasiya şəbəkəsinin davamlılığının artırılması əsas prioritetlər kimi müəyyən edilib.

Növbəti mərhələnin icrası ilə bağlı Azercell-in təşəbbüsü əsasında Azərbaycan Respublikasının Kosmik Agentliyi və “Aztelekom” MMC nümayəndələrinin iştirakı ilə işgüzar görüş keçirilib. Görüş zamanı layihənin mərhələli icra planı təqdim olunub, yol xəritəsi üzrə nəzərdə tutulan fəaliyyət istiqamətləri müzakirə edilib və tərəfdaşlar arasında koordinasiyanın daha da gücləndirilməsi məsələləri diqqət mərkəzində olub.

“Dayanıqlı rabitə, təhlükəsiz həyat!” şüarı ilə icra olunan BİQ layihəsi ölkədə regional resursların idarə edilməsi prosesinin formalaşdırılmasına yönəlib. Eyni zamanda, təşəbbüs böhran və fövqəladə hallarda rabitə xidmətlərinin operativ bərpasını təmin edən mexanizmlərin tətbiqini nəzərdə tutur və qəzabərpa tədbirlərinin çevik, planlı şəkildə icrası üçün hazırlıq səviyyəsini artırır.

BİQ çərçivəsində yaradılan əməkdaşlıq modeli müxtəlif qurumlar arasında operativ informasiya mübadiləsini və resursların effektiv bölüşdürülməsini təmin etməklə telekommunikasiya infrastrukturunun dayanıqlılığını gücləndirir.

Qeyd edək ki, layihənin ilkin mərhələsi 2024-cü ildə uğurla tamamlanıb. Bu mərhələdə operativ böhran idarəetmə qrupları formalaşdırılıb, regionlarda simulyasiya testləri keçirilib və rabitə xidmətlərinin bərpa müddətinin optimallaşdırılması istiqamətində əhəmiyyətli nəticələr əldə olunub.

***İdman***

## Azərbaycan İdman Akademiyasında cüdo məşqçilərinə sertifikatlar təqdim olunub



Azərbaycan İdman Akademiyası (ASA) ilə Azərbaycan Cüdo Federasiyası (ACF) arasında əməkdaşlıq çərçivəsində cüdo məşqçilərinin səviyyəsi üzrə sertifikatlarının təqdimetmə mərasimi keçirilib.

ASA-dan AZƏRTAC-a bildirilib ki, akademiyanın rektoru Fuad Hacıyev ölkədə idman təhsilinin keyfiyyətinin artırılması, məşqçi hazırlığı sisteminin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğun kadrların yetişdirilməsinin əhəmiyyətini vurğulayıb.

ACF-in icraçı vitse-prezidenti Rəşad Rəsullu federasiya ilə akademiya arasında səmərəli əməkdaşlığın cüdo idman növünün inkişafına mühüm töhfə verdiyini bildirib, sertifikatlaşdırma prosesinin məşqçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsində xüsusi rol oynadığını qeyd edib.

Akademiyanın Tədris işləri üzrə prorektoru Ülkər Babayeva ASA və ACF arasındakı bu əməkdaşlıq modelinin həm yerli, həm də beynəlxalq əmək bazarında rəqabətədavamlı kadrların hazırlanmasına müsbət təsir edəcəyini bildirib.

ASA-nın Ömürboyu təhsil şöbəsinin müdiri Lalə Məmmədova isə sertifikatlaşma proqramı çərçivəsində həyata keçirilən müxtəlif istiqamətli təlimlərin ümumi icmalını bölüşüb.

Daha sonra cüdo məşqçiləri üçün I və III səviyyələr üzrə, eləcə də “Təlimçi təlimi” proqramını uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

## “Baku Open” stolüstü tennis turniri keçiriləcək




Beynəlxalq Stolüstü Tennis Federasiyasının yaradılmasının 100 illiyinə və Bakının 2026-cı il “Dünya İdman Paytaxtı” seçilməsinə həsr olunan “Baku Open” turniri keçiriləcək.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Stolüstü Tennis Federasiyası tərəfindən “Şüa İdman Kompleksi”ndə təşkil olunacaq turnirdə əsasən həvəskar və veteran idmançılar bacarıqlarını göstərəcəklər. Peşəkar idmançılar yalnız qoşa yarışlarda (bir peşəkar və bir həvəskar olmaqla) mübarizə aparacaqlar.

Aprelin 4-5-i və 11-12-də keçiriləcək yarışın mükafat fondu 3000 manat olacaq.

Turnirə qatılmaq istəyənlər Azərbaycan Stolüstü Tennis Federasiyasına müraciət edə bilərlər.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4855**
**Sifariş: 267**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova